

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 37 (24.472)

*27 sentyabr 2025-ci il, şənbə*

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*

# Zəfərin səsi, şəhidlərin izi



## *Bizim işimiz haqq işidir*

Dünya yaranandan, tarix bəlli olandan aylar günlər öz yerini tutandan, saatlar dəyişib gecə-gündüz olandan hər il gəlirdi o gün: 27 sentyabr. Adi bir gün idi: günəş doğulur, bəzən isə yağış yağırdı, sadə, sakit günlərdən biri kimi keçirdi yüz illərdir, həmin tarix. Ta ki həmin səhərə kimi... Həmin səhər hələ dan ulduzu görünməmiş, azan səsi duyulmamış, günəş dağların ardından boylanmamış Azərbaycan torpağında yerlə göy birləşdi sanki. Azərbaycan əsgəri dilində Vətən nəğməsi, könlündə Qarabağ yanğısı, ürəyində düşmənə nifrət hissi ilə döyüşə atıldı. Azərbaycanın bir qaranlıq payız gecəsinin sabahı igid oğullarımızın günəş kimi parlayan qəhrəmanlıqlarının şəfəqləri ilə açıldı. Qəlbi Vətən eşqi ilə döyünən igid oğullarımız öz canları bahasına üçrəngli bayrağımızı azad edilmiş torpaqlarımıza sancdığı saatlarda Azərbaycan xalqının gözü televiziya ekranında, qulağı səsdə idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətindəki hər söz, hər cümləni əzbərləyir, ürəyimizə həkk edirdik. Biz bu sözləri ***"Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"*** eşitmək üçün 28 ildir, səbirsizliklə gözləmişdik axı. Axı O, Prezident seçiləndə xalqa söz vermişdi Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcəyinə. Və budur, həmin vaxt çəlib çatmışdı. Ali Baş Komandan Ulu Öndərin vəsiyyətini yerinə yetirmək yolunda qələbəyə doğru xalqı ilə birlikdə ilk addımını atırdı. Vaxtilə Naxçıvanda əsası qoyulan Milli Ordu "Müzəffər" adını qazanmaq üçün Murovun qarlı aşırımlarını aşır, torpağımızı ovuc-ovuc azad edirdi.

Səhifə ➡ 8



## Azərbaycanın BMT-dən mühüm mesajı: *Gəlin, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq*



Səhifə ➡ 2

## Azərbaycan-Ruanda münasibətləri iqtisadi və ticari tərəfdaşlıq yolunda



Səhifə ➡ 3

## 27 sentyabr – Anım Günü münasibətilə tədbirlər keçirilib



Səhifə ➡ 5

# Azərbaycanın BMT-dən mühüm mesajı:

## Gəlin, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq



BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar bir neçə gündür, beynəlxalq ictimaiyyətin, siyasi elitanın diqqəti ABŞ-nin Nyu-York şəhərinə fokuslanıb, dünya siyasətinin görkəmli nümayəndələrini bir araya gətirən bu qlobal əhəmiyyətli tədbir Azərbaycanın diplomatiya tarixinə qızıl hərflərlə öz möhürünü vurmaqdadır. Prezident İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş və digər ölkə liderləri, beynəlxalq iqtisadi təşkilat rəhbərləri ilə keçirdiyi ikitərəfli görüşlər gələcək faydalı əməkdaşlıqlara dair mühüm perspektivlərin müzakirəsi ilə yadda qaldı. Dünya liderlərinin, xüsusilə də ABŞ rəhbəri Donald Trampın Azərbaycan Prezidenti ilə səmimi dialoqu medianın siyasi gündəminin əsas manşetinə çevrilməklə Azərbaycan diplomatiyasının dünyanın bir nömrəli siyasi ofisi – Ağ Ev tərəfindən tam dəstək aldığını, respublikamızın qlobal siyasi gündəmə verdiyi töhfələrin nəticəyönümlü xarakter daşıdığını göstərdi. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı ilə ölkəmizin qlobal siyasətdəki mövqeyini ortaya qoydu, dünyaya sülh çağırışı etdi, ədalət mesajları ötürdü. Sitat: ***"Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır. Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".***

89 dövlət başçısı, 5 vitse-prezident, 1 şahzadə, 43 hökumət başçısı, 5 Baş nazirin müavini, 45 nazir, 1 nazir müavini və Aİ nümayəndə heyətinin iştirakının nəzərdə tutulduğu BMT Baş Assambleyasının 80-ci sessiyası Azərbaycan dövlətinin milli maraqlara əsaslanan, prinsipial və uzaqgörən siyasətinin, qlobal arenadakı nüfuzunun təntənəsinə çevrildi. Prezident İlham Əliyevin sessiyadakı beynəlxalq əhəmiyyətli, konsepsiya xarakterli çıxışında dünya nizamının formalaşdırılmasına, regionda davamlı sülh və əməkdaşlığa dair mühüm tezislər diqqəti çəkdi. Onlardan birincisi, sözsüz ki, Azərbaycanın milli maraqlara, beynəlxalq hüquqa əsaslanan mövqeyinin ortaya qoyulmasıdır. Bu mənada, torpaqlarımızın otuzillik işğal dönəmi, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən qeyri-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyi 4 qətnamənin kağız üzərində qalmasının səbəb və nəticələrinin şərhi məxsusi əhəmiyyət daşıyır. Bəli, məhz Azərbaycan dövlətinin siyasi iradəsinin, diplomatiyasının məharəti ondan ibarətdir ki, respublikamız dünyanın nüfuzlu beynəlxalq təşkilatlarının etməli olduğu, amma edə bilmədiyini etdi. Nə 1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu missiyasını uğurla yerinə yetirdi, nə də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi dörd qətnamənin icrasına nail ola bildi. Yalnız Prezident İlham Əliyevin praqmatik siyasəti, qlobal siyasi nüfuzu sayəsində regionda tarixi ədalət, beynəlxalq hüquq bərpa olundu. Müharibədə tarixi zəfər qazanan Azərbaycan ədalətli sülhün də memarı, təşəbbüskarı kimi çıxış etdi və nəhayət, bu il avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalar respublikamızın tarixinə mühüm siyasi-diplomatik nailiyyət kimi düşdü. Ağ Evdə baş tutan ikitərəfli, üçtərəfli görüşlər regionda davamlı sülhün təmin edilməsi ilə yanaşı, əməkdaşlıq körpüsünün yaradılması baxımından vacib addımların atılmasına da şərait yaratdı. Zəngəzur dəhlizinin "Tramp marşrutu" adı ilə reallaşması yönündə əldə olunan razılaşmalar, Azərbaycanla Birləşmiş Ştatlar arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında iki hökumət arasında Anlaşma Memorandumunun imzalanması və ABŞ Konqresinin 907-ci düzəlişi birdəfəlik ləğv etməsi Prezident İlham Əliyevin qlobal nüfuzunun, liderlik məharətinin mühüm göstəriciləridir.

Azərbaycan 20 ildən artıq zaman çərçivəsində dünya nizamının formalaşdırılması, beynəlxalq məsələlərin həllinə dair qlobal çağırışlara uyğun mühüm təşəbbüslər irəli sürüb, layihələrin reallaşmasına nail olub. Bu xüsusda enerji, nəqliyyat sahəsində əməkdaşlıqların dərinləşdirilməsini uzaq coğrafiyaları yaxınlaşdırmaq, iqtisadi münasibətləri tənzimləmək baxımından mühüm nailiyyət kimi dəyərləndirmək olar. Respublikamız Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, TAP, Cənub Qaz Dəhlizi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), "Rəqəmsal İpək Yolu" layihələri, eləcə də "yaşıl enerji"yə dair təşəbbüsləri ilə dünyada iqtisadi dayanıqlıq, ticarət körpüsü yaratmağa müvəffəqdir. Bu gün 14 ölkəyə təbii qaz nəql edən Azərbaycan Avropanın enerji təhlükəsizliyinin etibarlı təminatçısı statusuna malikdir. Ötən il COP29-a ev sahibliyi etməklə müasir çağırışlara cavabını ən yüksək səviyyədə verən respublikamız bu istiqamətdə təşəbbüslərinin nəticəsi kimi günəş, külək və su elektrik enerjisi kimi bərpa olunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir. 2030-cu ilə qədər enerji istehsalının, təxminən, 40 faizinin bərpa olunan mənbələr hesabına təmin ediləcəyi planlaşdırılır.

Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əvəzolunmaz hissəsi olan respublikamız tranzit ölkə kimi Avropa ilə Asiya arasında ticarət körpüsü yaradır, Avrasiyanın nəqliyyat xəritəsini müəyyənləşdirir. Həmçinin Azərbaycan qlobal səviyyədə humanitar yardım missiyası ilə də tanınır, rəğbət qazanır. Qoşulmama Hərəkatına 4 illik sədrlik dönəmi bunun əyani sübutudur. Azərbaycan COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində 80-dən çox ölkəyə qoruyucu avadanlıqlar, tibbi cihazlar və vaksinlər ianə edib və maliyyələşdirib. Respublikamız təbii fəlakətlərdən, münaqişələrdən və səhiyyə sahəsində böhranlardan zərərçəkən Suriya, Ukrayna kimi ölkələrə humanitar yardımlar göstərir. Reallaşdırılan layihələr, irəli sürülən mühüm təşəbbüslər Azərbaycan dövlətinin qlobal miqyasda mühüm rola malik olduğunu göstərməklə yanaşı, həm də ölkəmizin iqtisadi qüdrətinin ilbəil daha da artmasını şərtləndirir. Təsadüfi deyildir ki, respublikamızın əldə etdiyi iqtisadi nailiyyətlər bu sahədə qiymətləndirmə aparan beynəlxalq təsisatlar tərəfindən yüksək qiymətləndirilir. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı Azərbaycanda əlverişli investisiya mühitinin formalaşdırıldığını, iqtisadi dayanıqlığın artdığını və buna iki beynəlxalq reytinq agentliyi tərəfindən layiqli qiymət verildiyini vurğuladı: ***"Bu yaxınlarda iki aparıcı beynəlxalq reytinq agentliyi ("Moody's" və "Fitch") Azərbaycanın reytinqini artırdı. Çox güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas güclü tərəflər kimi göstərilməklə Azərbaycana sərfəli investisiya dərəcəsi verildi. Bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, güclü fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir. Xarici borcumuz ÜDM-in cəmi 6,5 faizini təşkil edir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan, təxminən, 16 dəfə artıqdır".***

BMT Baş Assambleyasının 80-ci sessiyası Azərbaycan diplomatiyasının qlobal arenadakı mühüm rolu və nüfuzunu növbəti dəfə ortaya qoymaqla respublikamızın siyasi xarizmasının daha da artdığını sübut etdi. Prezident İlham Əliyev sessiyadakı tarixi çıxışında Azərbaycanın həm müharibədə, həm də sülh müstəvisində əldə etdiyi qələbələri beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutu kimi dəyərləndirdi. ***"Azərbaycan yeni bir dövrə qədəm qoyub. Biz həm müharibəni uddug, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq. Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur"*** – sitatın sonu!

**Nail ƏSGƏROV**

## Nyu-Yorkda Azərbaycanın mövqeyi: etimad, əməkdaşlıq və sülhün təntənəsi

"Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq münasibətlər sistemində fəal və prinsipial mövqeyi ilə seçilir. Bu mövqeyin ən bariz göstəricilərindən biri ölkəmizin Birləşmiş Millətlər Təşkilatı ilə qurduğu münasibətlərdə əksini tapır. Azərbaycanın bu nüfuzlu təşkilatla əməkdaşlığı illər ərzində ardıcıl olaraq inkişaf edib və dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş kimi qəbul olunmasına səbəb olub".

Bu sözləri "Şərq qapısı"na açıqlamasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rauf Cəfərov bildirib.

Deputat deyib ki, xüsusilə 2011-ci ildə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi tariximizdə mühüm mərhələ oldu: "155 dövlətin dəstəyini qazanmaq Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun, diplomatik gücünün və multilateralizmə sadiqliyinin parlaq təzahürü idi. 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasında təmsil olunan Azərbaycan münaqişələrin həlli, beynəlxalq sülh və təhlükəsizliyin qorunması, humanitar problemlərin aradan qaldırılması kimi qlobal məsələlərin gündəliyə çıxarılmasına nail oldu. Deputatın sözlərinə görə, bu təkcə ölkəmiz üçün deyil, həm də regionumuz üçün strateji əhəmiyyət kəsb edən hadisə idi".

Rauf Cəfərov qeyd edib ki, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş imicinin möhkəmlənməsində digər bir mühüm addım 2015-ci ildə "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyinin" qəbul edilməsi və onun icrasına fəal qoşulmasıdır. Azərbaycan bu öhdəlikləri yalnız qəbul etməklə kifayətlənməyib, həm də onların həyata keçirilməsində nümunəvi təcrübə ortaya qoyub. Bu isə ölkəmizin dayanıqlı inkişaf, sosial rifah və iqtisadi sabitlik istiqamətində atdığı addımların beynəlxalq miqyasda yüksək qiymətləndirildiyini göstərir.

Deputat bildirib ki, Azərbaycanın BMT ilə əməkdaşlığı təkcə siyasi müstəvidə deyil, eyni zamanda qlobal təhlükəsizlik, iqlim dəyişikliyi, miqrasiya, qaçqınların müdafiəsi, qida təhlükəsizliyi və digər humanitar sahələrdə də özünü göstərir. Azərbaycanın təşəbbüsləri BMT-nin müxtəlif platformalarında diqqətlə izlənilir və dəstək qazanır.

Onun sözlərinə görə, hazırda dünyada gedən mürəkkəb geosiyasi proseslər, regional münaqişələr, iqtisadi və ekoloji çağırışlar BMT-nin daha çevik, səmərəli və təsirli fəaliyyət göstərməsini tələb edir: "Qlobal təhlükəsizliyi təmin etməli olan qurumun struktur və funksional baxımdan gücləndirilməsi artıq qaçılmaz zərurətə çevrilib. Əgər bu islahatlar həyata keçirilsə, BMT qlobal sabitliyin qorunmasında həlledici rolunu daha səmərəli icra edə biləcək. Bu isə dünya siyasətində sülh amilinin aparıcı faktora çevrilməsinə gətirib çıxaracaq".



Deputat vurğulayıb ki, Azərbaycanın xarici siyasət kursu daim beynəlxalq əməkdaşlığa, qarşılıqlı hörmətə və etimada əsaslanır. Bu prinsiplər həm BMT ilə münasibətlərdə, həm də digər beynəlxalq təşkilatlarla əməkdaşlıqda aydın şəkildə görünür. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, qlobal çağırışlara yalnız birlikdə, ədalətli yanaşma və qarşılıqlı dəstək əsasında cavab vermək mümkündür.

"Azərbaycanın BMT-dəki fəallığı, sülh və təhlükəsizlik naminə ortaya qoyduğu təşəbbüslər ölkəmizin beynəlxalq miqyasda mövqeyini daha da möhkəmləndirir. "Nyu-Yorkdan bütün dünyaya yayılan bu səs Azərbaycanın etibarlı tərəfdaş, sülhün və inkişafın tərəfdarı olan dövlət kimi nüfuzunu bir daha təsdiqləyir. Bu mövqeyin əsasında isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və qətiyyətli siyasət dayanır", – deyə Rauf Cəfərov əlavə edib.

# Azərbaycan-Ruanda münasibətləri iqtisadi və ticari tərəfdaşlıq yolunda

***Azərbaycan dövlətinin xarici siyasətində Afrika ölkələri ilə hərtərəfli münasibətlərin qurulması, bu qitədə yaşayan xalqların hüquqlarının müdafiəsi başlıca prinsiplərdəndir. Azərbaycan ilə Ruanda arasında son illərdə çoxtərəfli platformalarla yanaşı, ikitərəfli münasibətlər də intensivləşmə dönəminə qədəm qoyub. Xüsusilə müasir çağırışlara uyğun respublikamızın qazandığı zəngin təcrübə Afrika qitəsinin bu ölkəsinin böyük marağındadır. Bu baxımdan, Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin Azərbaycana növbəti səfəri, keçirilən görüşlər, müxtəlif sahələrə dair fikir mübadilələri faydalı əməkdaşlığa dair yeni imkanların açılmasına səbəbiyyət yaratdı.***



Azərbaycanla Ruanda arasında siyasi münasibətlərin, diplomatiyanın tarixi elə də böyük və zəngin deyil. Respublikalar arasında diplomatik əlaqələr 2004-cü il mayın 28-də qurulub. Uzun müddət çoxtərəfli platformalarda inkişaf etdirilən əlaqələr son dönəmdə ikitərəfli müstəvidə də aktivləşməyə başlayıb. Bakı ilə Kiqali arasında əsas siyasi, iqtisadi və humanitar dialoq platformaları Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatıdır. Məhz bu təşkilatlar çərçivəsində Ruanda daim respublikamızın ərazi bütövlüyünə, suverenliyinə, o cümlədən də irəli sürdüyü təşəbbüslərə dəstəyini ifadə edir. Ruanda COVID-19 pandemiyası dövründə Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi "peyvənd milliyyətçiliyi" aparan, ədalətsizlik yaradan bəzi Qərb ölkələrinə qarşı qətiyyətli mövqeyini fəal şəkildə dəstəkləyib. Bunun əyani sübutu Ruandanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılmasının lehinə səs verməsi olub. Sentyabrın 20-də Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin ölkəmizə səfəri çərçivəsində təşkilatlararası sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatında Prezident İlham Əliyev də bu məqamlara xüsusi toxundu, Azərbaycan ilə Ruandanın yaxşı tərəfdaş və dostlar olduğunu vurğuladı. Sitat: ***"Azərbaycan ilə Ruanda yaxşı tərəfdaş və dostlardır. Biz müxtəlif beynəlxalq təsisatlarda birgə iştirak edirik və hər zaman bir-birimizi dəstəkləyirik. Qoşulmama Hərəkatında sədrliyimiz dövründə Ruanda hər zaman bizə dəstək vermişdir. Siz bizə sədr seçilmək və sonra sədrliyimizin uzadılması üçün dəstək verdiniz. Ruanda, həmçinin Qoşulmama Hərəkatında həmrəyliyin gücləndirilməsinə yönəlmiş təşəbbüslərimizin əksər hissəsini dəstəkləmiş və ona qoşulmuşdur. Biz birmənalı olaraq BMT daxilində hər zaman fəal əməkdaşlıq edirik və bir-birimizə qarşılıqlı dəstəyi artırırıq".***



Ölkələrimiz arasında münasibətlərin daha da yaxşılaşmasında ötən il Bakıda keçirilən COP29-un da rolu böyükdür. Konfrans çərçivəsində baş tutan prezidentlərin görüşündə iki ölkə arasında münasibətlərin artan əhəmiyyəti bir daha vurğulanıb, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və investisiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Millətlər Birliyi (Commonwealth) təşkilatı çərçivəsində əməkdaşlıq, birgə İşçi Qrupunun yaradılması tərəflərin əlaqələrin bu sahədəki inkişafı istiqamətində məqsədyönlü addımlar atdığını təsdiqləyir. Təqdirəlayiq haldır ki, respublikamız Qoşulmama Hərəkatında olduğu kimi, COP29-a sədrlik etdiyi dönəmdə də Afrika qitəsində yerləşən ölkələrin, o cümlədən də Ruandanın, ölkə vətəndaşlarının hüquqlarının etibarlı müdafiəçisi qismində qətiyyətlə çıxış edib. Məhz bunun nəticəsində Bakıda tarixi qərar qəbul edilib, COP29-da inkişaf etməkdə olan ölkələrin, o cümlədən kiçik ada, ən az inkişaf etmiş və Afrika dövlətlərinin səbirsizliklə gözlədiyi İtki və Zərər Fondunun tam fəaliyyətə başlaması təmin olunub.

Azərbaycan ilə Ruanda arasındakı münasibətlərin son zamanlarda çoxtərəfli dialoqdan aktiv ikitərəfli əməkdaşlığa keçməsinə əsas səbəb kimi ölkələrarası müxtəlif sahələr üzrə təcrübə mübadiləsinə dair maraqların kəsişməsidir. Ruandanın ölkəmizin "ASAN xidmət" modelinə marağı iki ölkənin liderləri arasında COP29 zamanı keçirilmiş görüşdə rəsmi şəkildə ifadə olunub. Və nəticədə, bu istiqamətdə konkret addımlar atılıb. Belə ki, bu ilin iyun ayında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndə heyətinin Ruandaya səfəri zamanı "ASAN xidmət" modelinin tətbiqi və Ruandada oxşar mərkəzin yaradılması ilə bağlı Anlaşma Memorandumu imzalanıb. Ruanda liderinin budəfəki səfəri isə həm "ASAN xidmət", həm də təhsil sahəsi üzrə yeni əməkdaşlıq imkanlarının dəyərləndirilməsi baxımından zəngin oldu. Təhsilə dair ikitərəfli əlaqələrin inkişaf perspektivlərinin açılmasında Heydər Əliyev Fondunun da əvəzsiz xidmətlərini xüsusi vurğulamaq lazımdır. Bu mənada, Heydər Əliyev Fondunun nümayəndə heyətinin ötən il Ruandaya səfəri və fondun vitse-prezidenti Leyla Əliyevanın bu ölkənin Prezidenti ilə görüşü olduqca mühüm əhəmiyyətə malikdir.

Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin Azərbaycana növbəti səfərinin ümumi şərhi kimi onu qeyd etmək olar ki, tərəflər səfər çərçivəsində keçirilən görüşlər, tanışlıqlar, imzalanan sənədlərlə təhsil, kənd təsərrüfatı və innovasiyalara dair birgə əməkdaşlığın mühüm perspektivləri olduğunu ortaya qoydular. Gələcəkdə hər iki ölkə arasında sadalanan sahələr üzrə sərmayə yatırımı və təcrübə mübadiləsi əlaqələri yeni – daha yüksək mərhələyə daşıya, siyasi münasibətlər kimi birgə iqtisadi fəaliyyət, ticari tərəfdaşlıq da dərinləşə bilər. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bizə, sadəcə, müxtəlif səviyyələrdə daha çox təmasların qurulması, birgə biznes və investisiya imkanlarının müzakirəsi üçün biznes, eləcə də müxtəlif nazirliklərin nümayəndə heyətlərinin mübadiləsi lazımdır. Mən Ruandada sərmayə layihələrində iştirak etməyə hazır olduğumuzu vurğuladım və əminəm ki, cənab Prezidentin səfəri və müzakirələrimiz, eləcə də mətbuat konfransından sonrakı söhbətlərimiz iqtisadi və ticari sahədə tərəfdaşlıq üçün çox möhkəm zəmin yaradacaq. Bizim əla siyasi münasibətlərimiz var və bizə bütün digər sahələrdə də eyni münasibətlər səviyyəsi lazımdır".***

**"Şərq qapısı"**

# Naxçıvanda 27 sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib




Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında 27 sentyabr – Anım Gününə həsr olunmuş tədbir keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sarayın foyesində Anım Gününə həsr olunmuş sərgi ilə tanış olub. Sərgidə Naxçıvan şəhidlərinin fotolarından ibarət banner, onların şanlı döyüş yoluna həsr olunmuş kitablar və rəsm əsərləri nümayiş etdirilib. Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin və Uşaq Musiqi və İncəsənət Məktəbinin şagirdləri zəfər motivlərini əks etdirən rəsmlərini təqdim ediblər.





Tədbirin açılış hissəsində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Naxçıvan Dövlət Filarmoniyasının xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.







Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək bildirib ki, 5 il əvvəl Azərbaycan xalqı və ordusu Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tarixi ədalətin bərpası naminə başladığı 44 günlük Vətən müharibəsində böyük zəfər qazandı. Qəhrəman oğullarımızın qanı, qazilərimizin fədakarlığı, xalqımızın birliyi nəticəsində torpaqlarımız işğaldan azad edildi, Azərbaycanın ərazi bütövlüyü, antiterror tədbirləri ilə suverenliyimiz təmin olundu. Azərbaycan xalqı hər zaman şəhidlərini minnətdarlıqla yad edir, onların ailələrinə və müharibə iştirakçılarına dərin hörmətlə yanaşır.





Səlahiyyətli nümayəndə vurğulayıb ki, bu tarixi qələbənin qazanılmasında Prezident cənab İlham Əliyevin qətiyyətli siyasəti, prinsipial mövqeyi və Ali Baş Komandan kimi rəhbərliyi həlledici rol oynadı. Bu uğurların əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da fədakar fəaliyyəti xüsusi yer tutur. Mehriban xanımın humanist fəaliyyəti, şəhid ailələrinə və qazilərə göstərdiyi diqqət, həm də Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi geniş layihələr dövlət-xalq birliyinin bariz nümunəsidir.




“Hər bir şəhid ailəsi, qazi bizim üçün əziz və dəyərlidir”, – deyən Fuad Nəcəfli diqqətə çatdırıb ki, mövcud qanunvericilik çərçivəsində şəhid ailələri və qazilər dövlətin xüsusi qayğısı ilə əhatə olunub, onların sosial təminatı və rifahının yaxşılaşdırılması məqsədilə davamlı tədbirlər həyata keçirilir. Prezident cənab İlham Əliyev tərəfindən son illərdə imzalanan fərman və sərəncamlarla şəhid ailələrinin, müharibə əlillərinin, veteranların sosial müdafiəsi gücləndirilib. 2018-2025-ci illər ərzində icra edilən 5 sosial islahat paketi bu kateqoriyadan olan şəxslərin ödənişlərini, pensiya və təqaüdlərini dəfələrlə artırıb. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu istiqamətdə ardıcıl işlər həyata keçirilir. Təkcə Vətən müharibəsindən sonrakı dövrdə muxtar respublikada 40 şəhid ailəsi, 45 müharibə əlili mənzillə təmin olunub, 86 nəfərə avtomobil verilib. Ümumilikdə isə bu günədək 80 şəhid ailəsi, 190 müharibə əlili mənzil və fərdi evlərlə, 367 nəfər isə avtomobillərlə təmin edilib. Həmçinin tarixi zəfərdən sonrakı postmüharibə dövründə 76 şəhid ailəsi üzvü, 65 nəfər müharibə ilə əlaqədar əlilliyi olan şəxs digər sosial proqramlara cəlb olunub. Bundan əlavə, Naxçıvanda xüsusi olaraq şəhid ailələrinə, qazilərə və müharibə veteranlarına dəstək məqsədilə yaradılan “Dəstək” Fondu tərəfindən bu günə qədər imtiyazlı şəxslərə 2 milyon 100 min manatdan artıq vəsait ayrılıb ki, bunun da 207 min 312 manatı məhz cari ilə təsadüf edir. Bu, dövlət və cəmiyyət həmrəyliyinin bariz nümunəsidir.

“Bu gün şəhidlərimizin ruhu şaddır, çünki onların uğrunda can verdikləri müqəddəs torpaqlar artıq azaddır. Şuşada, Laçında, Zəngilanda, Füzulidə, Xankəndidə və digər azad edilmiş torpaqlarda üçrəngli Dövlət Bayrağımız dalğalanır”, – deyən səlahiyyətli nümayəndə Fuad Nəcəfli ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhid olanlara Allahdan rəhmət, şəhid ailələrinə səbir diləyib, qazilərimizə cansağlığı, uzun ömür arzulayıb.

“Naxçıvan Şəhid Ailələri” İctimai Birliyinin sədri, şəhid Amin Gülməmmədovun atası Mayis Gülməmmədov 27 sentyabrın qürurlu bir gün olduğunu vurğulayaraq qeyd edib ki, məhz həmin tarixdən başlayan 44 günlük şanlı döyüş yolunda fədakar anaların, qəhrəman ataların övladları tarix yazdı. Bu gün vətənpərvər övladlarımızın sayəsində firavan və suveren Azərbaycanda yaşayırıq.

Şəhid Zülfü Rzayevin anası Mehparə Rzayeva dövlətimizin hər zaman şəhid və qazi ailələrinin yanında olduğunu minnətdarlıqla qeyd edib, şəhidlərimizin Qarabağın yaralarına məlhəm olduğunu qürurla vurğulayıb.

“Naxçıvan Qaziləri” İctimai Birliyinin sədri, Vətən müharibəsi qazisi Təbriz Zeynalov Azərbaycan Ordusunun şanlı döyüş yolundan söz açıb, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qüdrətinin, xalqımızın milli iradəsinin və qələbə əzminin dünyaya nümunə olduğunu qeyd edib.

Tədbirdə Naxçıvan televiziyasının 27 sentyabr – Anım Günü ilə bağlı hazırladığı film və Naxçıvan Dövlət Uşaq Teatrının kollektivinin hazırladığı kompozisiya nümayiş etdirilib, şəhid Tağı Abdullazadənin oğlu Yusuf Abdullazadə “27 sentyabr” şeirini səsləndirib.

Tədbirin sonunda üçrəngli Azərbaycan Bayrağı səhnəyə gətirilib, davamlı alqışların fonunda dalğalandırılıb.

# Naxçıvanda şəhidlərin xatirəsi anılıb











Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət rəsmiləri, ictimaiyyət nümayəndələri şəhidlərin əziz xatirəsini yad ediblər.

Səlahiyyətli nümayəndə, dövlət və hökumət nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, üzərinə tər qərənfillər düzüblər.

Fuad Nəcəfli şəhidlərin ailə üzvləri ilə görüşərək ehtiramını ifadə edib.

“Qurani-Kərim”dən ayələr oxunub, şəhidlərin ruhuna dualar edilib.

## Səlahiyyətli nümayəndə şəhid ailələrini ziyarət edib







Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid ailələrini ziyarət edib.

Səlahiyyətli nümayəndə Şərur rayonunun Dizə kəndində və Culfa şəhərində Vətən müharibəsi şəhidləri mayor Vüsal Vəliyevin və leytenant Yaqub Nəcəfovun, eləcə də Naxçıvan şəhərində antiterror əməliyyatları zamanı şəhid olmuş kapitan Elcan Balabəylinin ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Görüşlərdə ölkəmizin ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərimizin ailələrinə, qazilərimizə və müharibə iştirakçılarına olan diqqət və qayğının dövlətimizin sosial siyasətinin əsas istiqamətlərindən biri olduğu bildirilib. Qeyd edilib ki, Vətən müharibəsində qəhrəmanlıq göstərərək qanı ilə tarix yazan igid oğullarımızın adları Azərbaycan xalqının qəlbində yaşayacaq.

Şəhidlərin ailə üzvləri övladları ilə bağlı xoş xatirələrini paylaşıb, onların qəhrəmanlıqları ilə fəxr etdiklərini qeyd edib, şəhid ailələrinə göstərilən dövlət qayğısını daim öz üzərlərində hiss etdiklərini və bundan qürur hissi keçirdiklərini vurğulayıb, yaxşı yaşamaları üçün sosial təminatları ilə bağlı görülən bütün işlərə görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

## Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov şəhid ailələrini ziyarət edib







Sentyabrın 27-də – Anım Günündə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Vətən müharibəsi şəhidləri gizir Ələkbərov Bağır Əsəd oğlu, şəhid gizir Novruzlu Ümid Bahadur oğlu və şəhid leytenant Quliyev Vəli Kamal oğlunun ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıb.

Görüş zamanı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən müharibəsində tarixi qələbə qazanmasından, hərbçilərimizin qəhrəmanlığından bəhs edilib, ölkə başçısı cənab İlham Əliyevin şəhid ailələri və qazilərə xüsusi diqqətindən danışılıb. Bütün şəhidlərimizin xatirəsinin daim Azərbaycan xalqının qəlbində yaşayacağı vurğulanıb.

Şəhidlərimizin ailə üzvləri şəhidlərin xatirələrini bölüşüb, onların keçdiyi şərəfli döyüş yolundan, mərdlik və şücaətlərindən danışıb, şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğıya görə Prezident cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Ali Məclis komitələrinin iclasları keçirilib









Sentyabrın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti, Sosial siyasət, İqtisadi siyasət və Humanitar siyasət komitələrinin iclasları keçirilib.

İclaslarda VII çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələrinin 2025-ci ilin ötən dövrü ərzində fəaliyyətlərinə dair hesabatları diqqətə çatdırılıb, məsələ ilə əlaqədar komitə üzvlərinin çıxışları dinlənilib.

## Ali Məclisin deputatı, şəhid anası Gülşad Rüstəmovanın 50 yaşı tamam olub



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 34 saylı Şahbuz şəhər seçki dairəsindən olan deputatı, şəhid anası Rüstəmova Gülşad Qəzənfər qızının 50 yaşı tamam olub.

Gülşad Rüstəmova Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə və 50 illik yubileyi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunub.

Gülşad Rüstəmovanı təbrik edir, gələcək fəaliyyətində uğurlar və cansağlığı arzulayırıq.

## Naxçıvanda Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anılıb

27 sentyabr – Anım Günündə ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikada da canlarını Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyat vasitələrinin və piyadaların hərəkəti dayandırılıb.





## 27 sentyabr – Anım Günü münasibətilə tədbirlər olub







2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı.

Haqq davamızın, Vətən müharibəsinin başlamasının 5-ci ildönümündə bu tarixi günü qanları ilə milli tariximizə, yaddaşımıza əbədilik həkk edib, Vətən müharibəsində qəhrəmancasına döyüşüb, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırıb, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq 27 sentyabr – Anım Günü münasibətilə tədbirlər keçirilib.

Anım tədbirləri zamanı muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindəki şəhid məzarları və şəhidlərimizin ailələri ziyarət edilib. Tibbi aksiyalar təşkil edilib, şəhidlərin xatirəsinə ağacəkmə keçirilib. Keçirilən tədbirlər zamanı şəhidlərin ruhuna dualar oxunub.

## “Şərq qapısı” qəzetinin əməkdaşları Haçadağa yürüş ediblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi mətbuat orqanı “Şərq qapısı” qəzetinin əməkdaşları 27 sentyabr – Anım Günü ilə əlaqədar şəhidlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq Haçadağa yürüş ediblər.

Yürüş iştirakçıları ərazi şərtləri barədə məlumatlandırıldıqdan sonra Culfa rayonunun Gal kəndindən hündürlüyü 2415 metr olan Haçadağa yürüşə başlayıblar. 7 saatlıq yürüşün ardından Haçadağın zirvəsinə qalxan qəzet əməkdaşları Ümummilli Liderin və şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

“Şərq qapısı” qəzetinin əməkdaşları üzərinə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ***“...Qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq”*** sözləri həkk olunan tablonu Haçadağın zirvəsinə sancıb, müstəqilliyimiz və suverenliyimizin rəmzi sayılan üçrəngli Dövlət Bayrağını dalğalandırıblar.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı “Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” Sərəncama əsasən Vətən müharibəsinin başlandığı gün – sentyabrın 27-si şəhidlərin əziz xatirəsinin “Anım Günü” kimi qeyd edilir. Hər ilin bu günü ölkəmizdə silsilə anım tədbirləri keçirilir.

## Prezident İlham ƏLİYEV:

*“Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə, xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr endirmişdir.*

*Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu eyni zamanda regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.”*

## Qorxmadıq, çünki öz torpağımız uğrunda döyüşürdük

Onunla Şərur rayon Yengicə kəndində, Azərbaycan Respublikasının Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhidi Səyavuş Həsənovun kənd mərkəzindəki büstü önündə görüşürük. O, əmisinin qisasını alan oğul, Vətən torpağını azadlığa qovuşdurmaq yolunda sağlamlığını qurban verən bir qəhrəmandır. 27 sentyabr onun üçün təqvimdə sadə bir gün deyil. O gün başlayan Vətən müharibəsi onun həyatını həm fiziki, həm də ruhən dəyişdi. Amma bu dəyişikliklərə baxmayaraq, qarşımda oturan adamda bir kədər yox, bir qürur var. Biz bu söhbətdə bir az keçmişə qayıtdıq, xatirələrə, səngərlərə, dostluğa, Vətən sevgisinə...



Qürur hissiylə söhbətə başlayır:

“Azərbaycanın Milli Qəhrəmanı Həsənov Səyavuş Həsən oğlu mənim əmimdir və mən onun adını daşıyıram. Uşaqlıqdan hərbiyə həvəsim olduğuna görə hərb peşəsini seçdim. Əmimin qisasını aldım, qanını yerdə qoymadığıma görə, adına layiq olduğuma görə fəxr edirəm!

Əmim mənim üçün, sadəcə, bir qohum deyildi, həm də qəhrəmanım idi. Onun şəhid olması mənim içimdə bir kədər olsa da, bu bir məqsədə çevrildi. Hər addımımda onun xatirəsini yaşatmaq, başladığı yolu davam etdirmək istədim. Tək məqsədim əmim və onunla birgə şəhidlərimizin qanını yerdə qoymamaq idi. Şükür ki, arzuma çatdım”.

Milli Qəhrəmanın büstü önündə tapşırığı yerinə yetirmiş əsgər kimi dayanan Səyavuş söhbətinə davam edir:

“Vətən müharibəsi başlayanda Bakı şəhərində N hərbi hissədə xidmətdəydim. Elə müharibənin başladığını öyrəndikdən sonra ilk ailəmlə danışdım ki, məndən narahat qalmasınlar. Biz müharibəyə getmək qərarını çoxdan vermişdik, o günün gəlməyini gözləyirdik. Xəbər aldıqdan sonra gülə-gülə sevinə-sevinə getdik döyüşə. Mən və mənim şəxsi heyətim o qədər istəkli idi ki, bir komandir kimi qürur hissi keçirirdim, biz qorxmadıq, çünki torpaq bizim idi”.

Elə gözlərindən də onun necə sevincli, həyəcanlı olduğu görünürdü. Sanki həmin anlara qayıtmışdı.

“Mən tankçıyam. Müharibə zamanı Füzuli rayonunda idik. Əks-hücumda tankın içərisində olduğum zaman düşmənin atdığı mərmi tankı alovlandıranda əlimi üzümə atdım və hiss etdim ki, yanıram. Daha sonra çiyin nahiyyəmdə də yanıq ağrısı hiss etdim. Tüstü məni boğurdu, nəfəs ala bilmirdim və huşumu itirdim. Tank yanırdı... Yanımda bir gizir var idi – Hacızadə Rüfət. O məni alov içində olan tankdan çıxardı. Biz neytral ərazidə qaldıq. Daha sonra təxliyə olundum və Füzuli Diaqnostika Mərkəzinə aparıldım. Oradan da helikopterlə Bakıya göndərildim. Bir gündən sonra ayıldım. Ailəmin xəbəri yox idi, elə bilirdilər, şəhid olmuşam. Amma bu da Allahın qismətidir, şəhadətə ucalmaq nəsib olmadı, qazi oldum. Yaralandıqdan sonra həyatımda dəyişən əsas şey o oldu ki, bu gün fəxrlə deyə bilərəm: 30 illik həsrətə son qoyduq, suveren bir ölkədə yaşayırıq”.

Səyavuş Həsənli söhbətinə belə davam etdi:

“Hazırda mən Şərur rayonunun Yengicə kənd tam orta məktəbində Gənclərin çağırışa qədərki hazırlığı fənnini tədris edirəm. Gəncləri hərbi-vətənpərvərlik ruhunda tərbiyə edir, onlara şəhidlərimizi tanıdır, Vətən uğrunda yazılmış şanlı tariximizi anlatmağa çalışıram. İstəyirəm ki, bu zəfərin necə əldə edildiyini unutmasınlar. Çünki bu zəfər, sadəcə, qələbə deyil, illərlə çəkilən həsrətin sonudur, şəhid qanı ilə yazılmış bir tarixdir. Bu gün sinəmdə qürurla daşıdığım “Füzulinin azad olunmasına görə”, “Döyüşdə fərqlənməyə görə”, “3-cü dərəcəli qüsursuz xidmətə görə”, “Vətən müharibəsi iştirakçısı” medalları ilə fəxr edirəm.

Vətən oğullarının dövlət, torpaq uğrunda göstərdiyi rəşadət bizə göstərdi ki, qəhrəmanlıq yalnız tarixdə deyil, bu günümüzdə də yaşanır. Qəhrəmanlıq, sadəcə, keçmişin səhifələrində qalmayıb, bu gün də bizim aramızdadır. Tankın içində yanaraq ölümün bir addımlığında olan, amma yenə də “Vətən sağ olsun”, – deyən bir qazinin səsi, bir xalqın əyilməz iradəsinin göstəricisidir.

**Zəhra VƏLİYEVA**

# Zəfər yolu

## Ağxalatlı qəhrəman



Həkim olmaq qərarı verən gənc cəsarətlidir, hərbi həkim olmaq istəyi duyan gənc isə çox cəsarətlidir. Çünki bir əlində silah, digər əlində neştər tuta bilməyi hər kəs bacarmaz. O da bu cəsarəti özündə tapan oğul idi. Həkim olub həm həkimlik, həm də zabitlik şərəfini ləyaqətlə qoruyan Azərbaycan həkiminin döyüş meydanında necə şərəflə xidmət etdiyini sübut edən ağxalatlı qəhrəmanlardan biridir Vətən müharibəsi zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Turqut Xəlilbəyli.

Vətən müharibəsinin ilk və tək şəhid həkimi olan leytenant Turqut Xəlilbəyli müharibənin ilk günlərindən ön cəbhədə yaralı əsgər və zabitlərin həyatını xilas etmək üçün var gücü ilə çalışıb, öz vəzifəsini layiqincə yerinə yetirirdi. Oktyabr ayının 7-də Turqut yenə də döyüş meydanında idi. Yaralı əsgərlərimizi atəş altından çıxarır, onlara ilk tibbi yardımı göstərirdi. Həmin gün də o, yaralı əsgərlərimizi xilas etmək məqsədilə atəş altına üç dəfə girir. Lakin dördüncü dəfə düşmənin atdığı artilleriya mərmisi Turqutun yaxınlığına düşür. Bu zaman Turqut özünü yaralı əsgərimizin üzərinə atır və öz canı bahasına onun həyatını xilas edir. Aldığı ağır qəlpə yaraları səbəbindən leytenant Turqut Xəlilbəylinin həyatını qurtarmaq mümkün olmur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2020-ci il 15 dekabr tarixli Sərəncamına əsasən Turqut Xəlilbəyli ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” medalları və “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilib.

**Ramiyə ƏKBƏROVA**

## Bu zirvəyə yüksələnlər ölümsüzləşir

Azərbaycan torpağı tarixboyu igid oğullar yetişdirib. Onlar Vətən üçün can verib torpağın hər qarışını öz qanları ilə Vətən ediblər. Bir torpaq ki, heç vaxt şəhidlərini unutmayıb, unutmayacaq da. Çünki Vətənin bir qarış torpağı üçün canını fəda edən igidlər unudulmaz xatirələri ilə daim xalqın yaddaşında yaşayır. Onların ömür yolu bəzən çox qısa, lakin işıqlı olur. Hər bir şəhid öz adı ilə tarix yazır, nəsillərə örnək olur. Belə qəhrəman oğullarımızdan biri də 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Ruhid İslamlıdır. Onun həyat yolu bir gəncin Vətən sevgisinin, fədakarlığının və mərdliyinin parlaq nümunəsidir.



Ruhid İslamlı 1 aprel 1999-cu ildə Lerik rayonunun Çeşman kəndində dünyaya göz açıb. Yaxınları deyir ki, o, uşaqlıqdan mehribanlığı, çalışqanlığı ilə daim seçilirmiş. Dostları və tanışları onu hər zaman yardımsevər, qayğıkeş biri kimi xatırlayırlar.

Onun gənclik illərinin bir hissəsi Naxçıvanda oxuduğu dövrə təsadüf edib. Təhsilə böyük maraq göstərir, daim öyrənməyə, özünü inkişaf etdirməyə çalışırmış. Ruhid Naxçıvan Müəllimlər İnstitutunun Psixologiya ixtisasını uğurla bitirib, təhsil illərində tələbə təşkilatlarında fəal iştirak edərək həm akademik, həm də sosial bacarıqlarını inkişaf etdirib. Bu illər onun düşüncələrinin daha da formalaşmasına, Vətən sevgisinin daha da möhkəmlənməsinə təsir edib. Ruhid, eyni zamanda idmana böyük maraq göstərib. Hətta uşaq yaşlarından cüdo, cüicutsso, taekvondo, güləş, qaydasız döyüş və üzgüçülük kimi idman növləri ilə məşğul olub. İdman onda fiziki güclə yanaşı, mənəvi dayanıqlılıqda yaratmışdı… Ayaqda qalmaq, dözmək, mübarizə aparmaq.

İdmançı ruhu onu həm də döyüşlərdə daha çevik edib. Ruhid həm də çalışqanlığı ilə hər kəsin rəğbətini qazanıb. Onun ən gözəl cəhətlərindən biri də hər kəsə hörmətlə yanaşması, mehriban münasibəti imiş. Bu xüsusiyyətləri ilə o, tanıyanların yaddaşında daim işıqlı bir xatirə kimi qalıb.

Vətən hər bir gənc üçün ən müqəddəs dəyərdir. Ruhid İslamlı da həqiqi hərbi xidmətə yollananda bunun sıradan bir xidmət olmadığını bilirdi. O, əsgər olmağı özünə şərəf sayırdı. Silahı əlinə alanda, sərhəddə dayananda, yoldaşları ilə çiyin-çiyinə addımlayanda onun ürəyində bir amal vardı: torpaqlarımızı qorumaq, Vətənimiz üçün lazım gələrsə canından keçmək.

2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının tarixində yeni bir mərhələ açdı. Bu mübarizəyə qoşulan minlərlə igid oğul kimi Ruhid də ön cəbhədə döyüşüb. Hər bir döyüşçü kimi onun üçün bu müharibə torpaqlarımızın azadlığı, şəhidlərimizin ruhunun rahatlığı demək idi. Hər döyüşdə o, fədakarlığı və mərdliyi ilə seçilib. Onun şücaəti əsgər yoldaşlarına da güc verib.

6 oktyabr 2020-ci ildə Ruhid qəhrəmancasına şəhid olub. Onun gənc yaşda ömrünü Vətənə qurban verməsi arzularını yarımçıq qoysa da, adının Azərbaycan tarixinin igidlik salnaməsinə yazılması ailəsini qürurlandırır. Çünki şəhidlik ucalıqdır, zirvədir. Bu zirvəyə yüksələnlər ölümsüzləşirlər.

Azərbaycan dövləti öz qəhrəman övladlarının adını hər zaman uca tutur. Onun “3-cü dərəcəli Vətənə xidmətə görə” ordenlə təltif olunması qəhrəmanlığının, Vətən yolunda göstərdiyi şücaətin rəsmi təsdiqidir. Hər bir şəhid kimi Ruhid üçün də ən böyük mükafat xalqın sevgisi, xatirələrdə daim yaşamaqdır. Şəhid Ruhid İslamlı bir ailənin, bir kəndin övladı olmaqla yanaşı, həm də bütün Azərbaycanın qəhrəmanıdır.

**Elnurə CƏFƏROVA**

## Torpaqlarımızı işğaldan azad etmək böyük şərəfdir



27 sentyabr 2020-ci il. Hər birimizin qan yaddaşına, qürur mənbəyinə çevrilmiş həmin gün ölkəmizin hərb tarixinə qızıl hərflərlə yazıldı. Artıq həmin tarixi gündən bizi 5 illik zaman kəsiyi ayırır. Buna baxmayaraq, hələ də o günlərdə keçirdiyimiz hiss-həyəcan və bütün bu qaranlıq günlərin içərisində bizə ümid işığı olan torpaqlarımızın işğaldan azad olması xəbərinin verdiyi sevinc və qürur hissi ilk günkü kimi təzəliyini qoruyub saxlayır. Axı bu qələbə elə-belə başa gəlmirdi. Minlərlə igid el oğlumuz həmin saatlarda döyüş bölgəsində düşmən qarşısında mərd-mərdanə dayanmışdı. Onları nə çətin müharibə şəraiti, nə xain düşmən, nə də yorğunluq qorxutmurdu. Yalnız və yalnız bir amala çatmaq üçün gecə-gündüz usanmadan irəliləyirdilər – itirilmiş torpaqlarımızı yenidən qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etmək. Bu uğurda canından keçənlər də oldu, sağlamlığını qurban verənlər də. Belə igidlərimizdən biri də müharibənin canlı şahidi, hətta birbaşa iştirakçısı kimi bu gün bir daha tanımaqdan şərəf duyduğumuz, qorxmaz, mərd Vətən oğlu qazi Əmrah Məmmədovdur. 1994-cü ildə Şərur rayon İbadulla kəndində dünyaya göz açıb Əmrah. Hələ balacalıqdan Vətən eşqi ilə dolub-daşırdı o. Vətəni qorumaq, torpaqlarımızı azad etmək arzusu ilə yolunu Heydər Əliyev adına Hərbi Liseyə salmış, sonrakı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuş, həmin məktəbi Motoatıcı ixtisası üzrə bitirmişdi. O, Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonu ərazisində yerləşən N hərbi hissəsində xidmət edib.

Vətən müharibəsinə xüsusi təyinatlı qrupun komandiri kimi qatılan Əmrah Məmmədov Füzuli, Cəbrayıl, Qubadlı rayonları uğrunda gedən doyüşlərdə fəal iştirak edib. Zehnində canlandırdığı xatirələrlə o ağır günlərə yenidən qayıdan və həmin günləri xatırladıqca səsində həyəcan hiss olunan Əmrah deyir ki, oktyabrın ikisində Füzuli rayonunun Horadiz kəndi istiqamətində ayağımdan qəlpə yarası aldım. 4 gün hospitalda yatdıqdan sonra öz istəyimlə təkrar döyüşə qatıldım.

44 günlük müharibədən yadında qalanları bizimlə bölüşən Əmrah zehninə həbs olmuş o anları belə xatırlayır: “Yadımdadır, qrupumda olan Bəşir Məmişov minaya düşərək ayağını topuqdan itirdi. Qubadlı rayonuna keçdikdən sonra çox güclü döyüş getdi. Elə həmin vaxt artilleriya mərmisi – 120 mm-lik minamyot mərmisi yanıma düşdü. Bu vaxt, necə deyərlər, yerdən üzüldüyümü hiss etdim. Gözümü açanda artıq hospitalda idim. Məni təxliyə etmişdilər. Qapalı kəllə-beyin travması almışdım”.

“Qrupumun snayperi, taborun ilk şəhidi olan Emin Məmmədov qucağımda şəhadətə yüksəldi”, – deyən Əmrah onun adını övladına verib, bununla da çiyin-çiyinə vuruşduğu döyüş yoldaşının adını daim yaşatmaq istəyib.

Hərb sahəsindəki fəaliyyətinə və Vətən müharibəsindəki şücaətinə görə qazimiz “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Hərbi xidmətlərə görə” , “Vətən müharibəsi iştirakçısı”, “Şücaətə görə” və “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)” yubiley medalları ilə təltif olunub.

“Vətən müharibəsində qazandığımız Zəfər Azərbaycan xalqının mübarizliyini, sarsılmazlığını bütün dünyaya nümayiş etdirdi. Müharibənin ilk günlərindən başlayaraq işğal altında olan kəndlərin, qəsəbələrin, şəhərlərin azad olunması Azərbaycan dövlətinin gücünü bütün dünyaya göstərdi”, – deyə həmin o çətin günlərin, itirilmiş neçə-neçə həyatların müqabilində qazanılan Zəfərimizdən ağızdolusu danışır Əmrah. Dövlətimiz Vətənin bütövlüyü, rifahı naminə canını ortaya qoyan heç bir vətəndaşından qayğısını məhrum etmədiyi kimi, Əmrah Məmmədovdan da bu qayğını əsirgəməmiş, qazimiz ev və avtomobillə təmin olunmuşdur.

Bir zamanlar min bir fitnə-fəsadla əldə edilən torpaqlarımız artıq azaddır. Zülmə, təzyiqlərə məruz qalaraq zorla yurd-yuvasından didərgin salınan vətəndaşlarımız artıq öz doğma ocağına qayıdır. Bütün bunların hər birini isə bu yolda şəhid olmuş oğullarımıza, düşmənlə müharibədə sağlamlığını itirmiş qazilərimizə borcluyuq.

**Türkanə ƏSƏDOVA**



# Zəfərin səsi, şəhidlərin izi



(əvvəli 1-ci səhifədə)

***Belə Vətən sevgisi görən olmamışdı***

Bu 44 gün ərzində dünya cəbhə xəttində olmayan yaşayış məntəqələrində dinc əhaliyə hücum edən və elan olunmuş atəşkəs rejimini ardıcıl olaraq pozan Ermənistan və öz ərazilərini, yaşayış məntəqələrini bir-bir işğaldan uğurla azad edən Azərbaycan gördü, qəhrəman övladın Vətənini necə sevdiyinə şahid oldu. Həmin səhər cəbhəboyu mövqelərimizə düşən mərmilərin səsi təkcə Azərbaycana yox bütün dünyaya yayıldı. İllərdir, sakit dayanıb bir milyon qaçqının qışın soyuğunda, yayın istisində dəmir vaqonlarda necə yaşadığı ilə maraqlanmayan böyük və “ədalətli” dünya dövlətləri araya girib “Müharibəni dayandırın”, – deyəndə oğulları şəhid olan analar Ali Baş Komandana “Döyüşək, azad edək torpağımızı, dayanmasın müharibə” teleqramı vurdu. Cəbhə bölgəsindən uzaqda yaşasa da, düşmən mərmisinə tuş gələn, evindən yaralı vəziyyətdə çıxan Azərbaycan qadını “Evim, varım-dövlətim Azərbaycan əsgərinin saçının telinə qurban olsun, ta ki onlar sağ olsun, Şuşaya bayraq sancsın”, – deyib düşmənə gözdağı verdi.

Şəhid oğulları son mənzilə yola salan avtomobillərin önünə gül səpən analar, əsgər kalonlarının keçdiyi yolların ətrafında toplaşıb maşınları dayandırıb onlara pay tutan insanlar, qocalıq məvacibi ilə əsgərə pay tutan ahıllar hər kəsin arzusu bir idi: nə olursa olsun, qələbə qazanaq. Öz yurdumuza qovuşaq. Çünki bu müharibə təkcə torpaqlarımızı azad etmək üçün başlayan əks hücum deyildi, həm də 200 ildir, parçalanan, yarımcan edilən Azərbaycan torpağının hər balasını bir təpədə itirən anaların, işğalda olan torpaqlarda düşmən tapdağında dolaşan narahat ruhların, itkin şəhidlərin qisasını almaq uğrundakı ədalət yürüşü idi. İllərdir, zülüm çəkdirilən bir xalqın qoca dünyanın ədalətsizliyinə verdiyi cavab idi.

***Səndən ötrü can verməyə cümlə hazırıq***

Biz həmin günlərdə Dövlət Himnindəki bu sözlərin əməldə də şahidi olduq. 44 gündə təkcə əsgər ilə deyil, bütün xalqı ilə birlikdə döyüşdü Azərbaycan Ordusu. Gəncədə qadağan olunmuş silahların xarabaya çevirdiyi binaların altından üz-gözü qanlı, yaralanmış vəziyyətdə çıxarılan balaca Bəxtiyarın gülən üzündən, iki balasını Vətənə qurban verən ananın məğrur duruşundan, şəhid qardaşının məzarına torpaq atıb, şəhid həyat yoldaşının hərbi papağını başına geyinib bayrağa sarılmış tabutunu çiynində daşıyan gəlinin cəsarətindən güc alaraq döyüşdü. İşğaldan azad edilən Cəbrayılda, Füzulidə, Zəngilanda ucalan şanlı bayraq döyüşə gəlmək üçün növbə gözləyən mülki Azərbaycan vətəndaşının çiynində şəhidi dağ yuxarı qaldıran oğullara güc verdi. Azərbaycan xalqı 44 gün ərzində təkcə Ali Baş Komandanı, ordusu, həkimi ilə deyil, müəllimi, təqaüdünü Silahlı Qüvvələrə Yardım Fonduna köçürən təqaüdçüsü, illik ruzisini əsgərlərə bağışlayan kəndlisi ilə də tarix yazdı.

***Şuşasız işimiz yarımçıq olar***

Həmin gündən hər bir azərbaycanlının gözü yolda, qulağı səsdə qaldı. Ali Baş Komandanın xalqa müraciəti səbirsizliklə gözlənildi. İlk müjdələnən Suqovuşan, qələbə şəhəri Cəbrayıl, sonra Füzuli, Zəngilan, Qubadlı, Hadrut oldu. Hamının gözü Şuşada idi. Müzəffər Sərkərdə də deyirdi axı: ***“Şuşasız işimiz yarımçıq olar”.*** Və həmin gün gələndə bütün dünya şahid oldu bu xalqın gücünə. Keçilməz dağları Vətən sevgisi ilə aşan, sıldırım qayalara şəhidi çiynində qalxan Azərbaycan əsgərinin cəsarəti, Vətən sevdası dillərə dastan oldu. Həmin şanlı gün gələndə bu xalqın sevinci dünyaya sığmadı. Ata vəsiyyətini yerinə yetirən oğul olmaq şərəfini qazanan Ali Baş Komandan müjdəni xalqına Şəhidlər xiyabanında verdi. Və 8 noyabr “Zəfər Günü” kimi tarixə yazıldı. Bir gün sonra Azərbaycan Respublikasının 9 Noyabr – Bayraq Günündə düşmənin qəddi sındı. Təslim olan Ermənistana döyüş meydanında dərs keçən Ali Baş Komandan hərb meydanındakı qələbəni siyasi masada da qələbəyə çevirdi. Ağdam, Laçın, Kəlbəcər bir güllə atılmadan, bir şəhid verilmədən azad edildi.

Bu müharibədə qazanılan zəfər təkcə öz tariximizi yox, həm də regionun və dünyanın tarixini yenidən yaratdı. Postsovet məkanında 1945-ci ildən sonra keçirilən ilk Qələbə paradına da biz imza atdıq. Hamı gördü ki, bu xalq torpaqlarının işğalına 30 il səbir edə bilər, amma bununla barışa bilməz. Bütün dünyanın gözü 44 gün Azərbaycanda qaldı. Onlar oğullarımızın igidliyindən, qəhrəmanlığından danışdı: “Belə döyüş, belə dövlət, belə Vətən sevgisi görən olubmu? Azərbaycan əsgəri dağ yuxarı, həlak olmuş yoldaşı çiynində, döyüşə-döyüşə, qan-tər içərisində qalxırdı. Nə yaralını, nə öləni əldən buraxırdılar. Budur vətənpərvərlik! Budur Vətən sevgisi! Budur torpağa bağlılıq!”

***Tapşırıq yerinə yetirildi***

Tarixin bütün dövrlərində xalqına, dövlətinə sədaqətlə xidmət edən hər bir liderin ən böyük arzusu kürsüdə xalqa verdiyi sözləri yerinə yetirə bilmək xoşbəxtliyinə nail olmaqdır. Qələbə qazanıb Müzəffər Sərkərdə olmaq isə çox liderə qismət olmayıb. O bu şərəfə layiq olmaqla bərabər ömrünü xalqına həsr edən atasının da vəsiyyətini yerinə yetirərək Azərbaycan tarixinə adını qızıl hərflərlə yazıb Azərbaycan tarixinin, torpağını xilas edən və bütöv, suveren Azərbaycanın ilk Prezidenti oldu. Ata vəsiyyətini yerinə yetirib 30 ildir, həllini gözləyən bir problemi cəmi 44 gündə həll edib Müzəffər Komandan adını qazandı. Onun “dəmir yumruğ”u düşmənin başında ildırım kimi çaxıb onu pərən-pərən saldı. Tarix bu xalqın necə qəhrəman bir xalq olduğuna şahid olanda, bütün dünya Azərbaycan əsgərinin cəsarəti qarşısında heyrətə gələndə, Şuşada, Xankəndidə zəfər himni səslənəndə, şəhid anası “Oğlumun bəy paltarı uğrunda canından keçdiyi bayrağıdır”, sözlərini eşidəndə vaxtilə “Qarabağ Ermənistandır nöqtə”, – deyən, evi, yurdu-yuvası olmayan kimi kimsə vassalı kimi yaşayan bir köçəri tayfanın nümayəndələrinə baxıb “Siz haradan bilərdiniz ki, nöqtədən sonra nida var və onun gücü fikri bitirmir, qələbəyə, alqışa çevirir”, – dedik.

***Vətən sağ oldu, Vətən sağaldı***

Vətən sağ oldu. 44 gündə 28 ildir, qanayan yara sağaldı. Şəhidlərin torpağa axan qanı ilə yoğrulub sağaldı. Analar, atalar candan əziz balasını torpağa tapşırıb, tabuta sarılıb gələn bayrağı bağırlarına basanda 44 gündə hər şəhid torpağa tapşırılanda “Vətən sağ olsun”, – dedi. Yarası sağalan torpaq isə şəhidini bağrına basdı ona əbədi ana olmaq üçün. Həmin gündən Şuşa deyəndə Ümidlər, Adillər, Vüsallar yada düşdü, Laçın deyəndə Əliləri, Zəngilan deyəndə Xudayarları, Turqutları, Füzuli deyəndə Elməddinləri, Mərhəmətləri canını Vətənə qurban edən şəhidləri xatırladıq. Artıq beş ildir ki, Zəfərin səsi eşidiləndə, şəhidlərin nəfəsi ilə bütöv Azərbycanın başı üstündə dalğalanan bayrağı görəndə Vətən sağ oldu, qəhrəman oğullar, sizin güllə dəyən sinənizdən axan qan Vətənin illərdir, nəfəssiz qalan ürəyinə can verdi, Qarabağda qopan əllər illərdir, taqətdən düşən qollarına Vətəndən bərk-bərk yapışmağa güc, torpağa qarışan ayaqlar yeriməyə təpər verdi, qaranlığa qərq olan gözlər 30 ildir, işığa həsrət qalan gözlərinə nur oldu, – dedik.

Torpaq, Vətən olan oğullar, biz sizi heç vaxt unutmayacağıq, bu xalq sizi heç vaxt yaddan çıxarmayacaq, Xocalıda anasının bətnində öldürülən körpə, tapdaqdan qurtardığınız Vətən torpağı, Şuşada açan xarıbülbül çiçəyi, adsız və kimsəsiz məzarda yatan beşyaşlı qızın ruhu, bütöv Vətən, qalib Azərbaycan sizi daim minnətdarlıqla anır, torpağı öz qanı ilə yoğurub Vətən edən oğullar. Biz sizi təkcə 27 sentyabrda deyil, hər nəfəs alışımızda anırıq; hər səhər Qarabağın azad səmasından boylanan günəşi, gecələri nura qərq edən ayı görəndə.

**Ramiyə ƏKBƏROVA**



# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının 2025-ci ilin oktyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | 1 saylı Sədərək seçki dairəsi üzrə İsmayılov Mahir İslam oğlu | 17.10.2025, saat $10^{00}$, Sədərək rayonu, Heydərabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Vətən Abbas oğlu, 050-453-14-49 |
| 2. | 2 saylı Dəmirçi seçki dairəsi üzrə Quliyeva Zeynəb Kərim qızı | 25.10.2025, saat $11^{00}$, Sədərək rayonu, Qaraağac Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Novruzov Elçin Abil oğlu, 060-569-45-73 |
| 3. | 3 saylı Maxta seçki dairəsi üzrə Şıxəliyev Emin Arif oğlu | 22.10.2025, saat $15^{30}$, Şərur rayonu, Qorçulu Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Abbasov Hüseyn Mübariz oğlu, 060-515-05-51 |
| 4. | 4 saylı Yengicə seçki dairəsi üzrə Abbasov Əli Feyzulla oğlu | 24.10.2025, saat $15^{00}$, Şərur rayonu, Qarxun kənd tam orta məktəbinin binası, məktəbin kollektivi ilə | Nəcəfov Milad Niyaz oğlu, 060-201-11-91 |
| 5. | 5 saylı Çomaxtur seçki dairəsi üzrə Nəcəfsoy Pərvin Vidadi qızı | 10.10.2025, saat $11^{30}$, Şərur rayonu, Çomaxtur Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfsoy Aqil Yediyar oğlu, 050-405-43-85 |
| 6. | 6 saylı Çərçiboğan seçki dairəsi üzrə Babayeva Aynur Arif qızı | 14.10.2025, saat $11^{00}$, Şərur rayonu, Qarahəsənli Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Nuranə Arif qızı, 070-523-64-12 |
| 7. | 7 saylı Xanlıqlar seçki dairəsi üzrə Novruzov Azad Sevindik oğlu | 16.10.2025, saat $10^{30}$, Şərur rayonu, Sərxanlı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Bağırov Turqay Faiq oğlu, 060-550-20-20 |
| 8. | 8 saylı Düdəngə seçki dairəsi üzrə Bayramov Mübariz Rəcəb oğlu | 17.10.2025, saat $15^{00}$, Şərur rayonu, Cəlilkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Fatimə Hüseyn qızı, 060-209-99-93 |
| 9. | 9 saylı Mahmudkənd seçki dairəsi üzrə Şükürov Kamil Qəzənfər oğlu | 22.10.2025, saat $15^{00}$, Şərur rayonu, Muğancıq-Mehrab İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Nəcəfov Məhəmməd Ramazan oğlu, 060-310-07-06 |
| 10. | 10 saylı Şərur şəhər seçki dairəsi üzrə Hacıyeva Sevil Məhəmmədəli qızı | 20.10.2025, saat $15^{00}$, Şərur Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin inzibati binası | İsmayılova Mahı Arif qızı, 070-755-00-76 |
| 11. | 11 saylı Aşağı Yaycı seçki dairəsi üzrə Həsənova Sevinc Nəsrəddin qızı | 21.10.2025, saat $15^{00}$, Şərur rayonu, Yuxarı Yaycı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Kərimova Tərifə Məmməd qızı, 050-719-85-39 |
| 12. | 12 saylı İbadulla seçki dairəsi üzrə Məmmədov Məmməd Kərəm oğlu | 15.10.2025, saat $15^{00}$, Şərur rayonu, Vərməziyar Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədli Çinarə Məmməd qızı, 077-322-86-86 |
| 13. | 13 saylı Püsyan seçki dairəsi üzrə Novruzov Rafiq Novruz oğlu | 17.10.2025, saat $15^{00}$, Şərur rayonu, Danyeri Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | İbrahimov Allahverdi İsa oğlu, 050-571-33-03 |
| 14. | 14 saylı Qarabağlar seçki dairəsi üzrə Zeynalov Təbriz Eyvaz oğlu | 24.10.2025, saat $11^{00}$, Kəngərli rayonu, Yurdçu Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Musayev Musa Abdulla oğlu, 060-418-18-88 |
| 15. | 15 saylı Qıvraq seçki dairəsi üzrə Orucova Xəzəngül Yunis qızı | 23.10.2025, saat $11^{00}$, Kəngərli rayonu, Şahtaxtı Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədova Vəfa Elman qızı, 060-491-30-96 |
| 16. | 16 saylı Xok seçki dairəsi üzrə Məmmədov Mövlan Ələddin oğlu | 13.10.2025, saat $14^{00}$, Kəngərli rayonu, Çalxanqala Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacızadə Qorxmaz Vahid oğlu, 050-749-63-10 |
| 17. | 17 saylı Nehrəm seçki dairəsi üzrə Cəfərov Rauf Mehralı oğlu | 22.10.2025, saat $15^{00}$, Babək rayonu, Araz kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynov Elvin Hüseyn oğlu, 050-246-67-78 |
| 18. | 18 saylı Nehrəm seçki dairəsi üzrə Rzayev Teymur Yaqub oğlu | 09.10.2025, saat $15^{00}$, Babək rayonu, Çeşməbasar və Güznüt kənd sakinləri, Güznüt İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Axundov Simral Fərəc oğlu, 050-289-05-78 |
| 19. | 19 saylı Babək şəhər seçki dairəsi üzrə Allahverdiyeva Həbibə Rəşad qızı | 24.10.2025, saat $10^{00}$, Babək Rayon Mərkəzi Xəstəxanası | Fərzəliyeva Nurşanə İntiqam qızı, 051-923-54-56 |
| 20. | 20 saylı Zeynəddin seçki dairəsi üzrə Həşimov Əli Həsənqulu oğlu | 22.10.2025, saat $11^{00}$, Babək rayonu, Nəcəfəlidizə kənd mərkəzi | İbrahimov Namin Cabbar oğlu, 060-398-20-25 |
| 21. | 21 saylı Sirab seçki dairəsi üzrə Qənbərov Qafar Tahar oğlu | 29.10.2025, saat $15^{00}$, Babək rayonu, Qaraqala kənd tam orta məktəbin binası | Qənbərli Gülcan Qafar qızı, 060-201-41-01 |
| 22. | 22 saylı Şıxmahmud seçki dairəsi üzrə Məmmədov Üzeyir Səyyad oğlu | 08.10.2025, saat $11^{00}$, Babək rayonu, Payız kənd tam orta məktəbin binası | Həsənəliyev Fərid Rasim oğlu, 060-541-94-95 |
| 23. | 23 saylı Cəhri seçki dairəsi üzrə Bayramova Ülkər İmamqulu qızı | 23.10.2025, saat $11^{00}$, Babək rayonu, Cəhri Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Quliyev Emil Orxan oğlu, 077-545-85-90<br>Əliyeva Fidan Hüseyin qızı 051-533-71-71 |
| 24. | 24 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əliyeva Nuray Yadigar qızı | 21.10.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, Qaraçuq Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Seyidli Sabirə Azər qızı, 099-308-00-47 |
| 25. | 25 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədova Xumar Şəmsi qızı | 29.10.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, 4 saylı Sahə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hüseynli İradə Məzayıl qızı, 070-575-51-36 |
| 26. | 26 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Orucov Asəf Yunis oğlu | 20.10.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 11 nömrəli tam orta məktəbin binası | Əliyev Səfər Səxavət oğlu, 060-485-25-85 |
| 27. | 27 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədzadə Vüsal Əziz oğlu | 15.10.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 2 nömrəli tam orta məktəbin binası | Məmmədli Röyal Vüsal oğlu, 060-200-54-64 |
| 28. | 28 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Babayeva Təhminə Adil qızı | 24.10.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 12 nömrəli tam orta məktəbin binası | Cəlilzadə Səkinə Əhməd qızı, 051-310-55-38 |
| 29. | 29 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Bəhruz Qibləli oğlu | 23.10.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 6 saylı uşaq bağçasının binası | Rəhimov Vüsal Musa oğlu, 060-333-00-23 |
| 30. | 30 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Əhmədova Şəhla Hüseyn qızı | 08.10.2025, saat $12^{00}$, Naxçıvan şəhəri, Şahmat Mərkəzi | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 31. | 31 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Məmmədov Nazim Məmməd oğlu | 29.10.2025, saat $15^{00}$, Naxçıvan şəhəri, 14 nömrəli tam orta məktəbin binası | Hüseynov Sərvər Zeyqəm oğlu, 050-364-05-06 |
| 32. | 32 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Qasımov Əziz Kamal oğlu | 27.10.2025, saat $16^{00}$, Naxçıvan şəhəri, 59-cu məhəllə, səyyar qəbul | Rəhimov İntiqam Rəhim oğlu, 055-873-85-86 |
| 33. | 33 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə Dünyamalıyeva Aysel Məmməd qızı | 09.10.2025, saat $11^{00}$, Naxçıvan şəhəri, Əliabad Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədova Arzu Rza qızı, 060-384-34-30 |
| 34. | 34 saylı Şahbuz şəhər seçki dairəsi üzrə Rüstəmova Gülşad Qəzənfər qızı | 14.10.2025, saat $11^{00}$, Şahbuz rayonu, Şahbuzkənd Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Əli Firudin oğlu, 050-337-69-44 |
| 35. | 35 saylı Kolanı seçki dairəsi üzrə Tarverdiyeva Gülxarə Budaq qızı | 10.10.2025, saat $11^{00}$, Şahbuz rayonu, Biçənək kəndi səyyar qəbul | Məmmədli Səid Mehrab oğlu, 060-400-30-51 |
| 36. | 36 saylı Badamlı qəsəbə seçki dairəsi üzrə Məmmədov Ramiz Gülməmməd oğlu | 24.10.2025, saat $16^{00}$, Babək rayonu, Xalxal kənd mərkəzi | Qasımov Bəhlul Fərəməz oğlu, 050-483-29-78 |
| 37. | 37 saylı Culfa şəhər seçki dairəsi üzrə Əliyev Əjdər Zahid oğlu | 13.10.2025, saat $10^{00}$, Culfa Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Məmmədov Rəhman Abasət oğlu, 060-469-08-69; 077-569-43-65 |
| 38. | 38 saylı Yaycı seçki dairəsi üzrə Xudiyev Rza Əli oğlu | 17.10.2025, saat $10^{00}$, Culfa rayonu, Şurud Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası<br>17.10.2025, saat $11^{00}$, Culfa rayonu, Gal kənd mərkəzi | Canbaxşiyev Səməd Canbağış oğlu, 070-949-00-01<br>Əliyev Əli Şəmsəddin oğlu, 050-740-20-27 |
| 39. | 39 saylı Bənəniyar seçki dairəsi üzrə Abdullayev Qəzənfər İsmayıl oğlu | 24.10.2025, saat $11^{00}$, Culfa rayonu, Kırna Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əsgərov Elnur Lazar oğlu, 055-299-15-99, 060-211-82-42 |
| 40. | 40 saylı Saltaq seçki dairəsi üzrə Canməmmədov Canməmməd Ramiz oğlu | 21.10.2025, saat $10^{00}$, Culfa rayonu, Milax Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Təhməzov Rafiq Rafiq oğlu, 060-406-07-77 |
| 41. | 41 saylı Ordubad şəhər seçki dairəsi üzrə Məmmədov Bəxtiyar İbrahim oğlu | 09.10.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>23.10.2025, saat $11^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası | Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Vətəndaşların qəbulu sektoru, 036-544-01-43 |
| 42. | 42 saylı Aşağı Əndəmic seçki dairəsi üzrə Abdullayev Arzu Kamal oğlu | 02.10.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>16.10.2025, saat $15^{00}$, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin inzibati binası<br>30.10.2025, saat $15^{00}$, Ordubad rayonu, Gənzə Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Hacıyev Çinar Sahib oğlu, 060-352-52-53 |
| 43. | 43 saylı Vənənd seçki dairəsi üzrə Nəbiyev Ramil Paşa oğlu | 15.10.2025, saat $16^{00}$, Ordubad rayonu, Kələki tam orta məktəbin binası | Əhmədov Ziyad Mehman oğlu, 070-280-75-01 |
| 44. | 44 saylı Dəstə seçki dairəsi üzrə Rzayev Elmar İlqar oğlu | 01.10.2025, saat $15^{00}$, Ordubad rayonu, Düylün Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Rzayev Elmir Elmar oğlu, 055-317-62-01 |
| 45. | 45 saylı Sabirkənd seçki dairəsi üzrə Əhmədova Gülxarə Mənaf qızı | 28.10.2025, saat $12^{00}$, Ordubad rayonu, Bist Kənd İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyin binası | Əhmədov Suat Yusif oğlu, 060-200-09-30, 077-573-75-00 |

## Xocalı sakinləri sevincini "Şərq qapısı" qəzeti ilə bölüşdülər

İşğaldan azad olunmuş torpaqlara keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Növbəti köç karvanı Xocalı rayonunun kəndlərinə olub və ailələrə mənzillərin açarları təqdim edilib.

"Şərq qapısı" Böyük Qayıdışda vətəndaşlarımızın fikirlərini öyrənib, sevinclərinə şahid olub.



*İlhamə Novruzova* – Xocalı rayonun Daşbulaq kənd sakini: "Torpaqlarımız geri qaytarılandan sonra Bakıda olmağımıza baxmayaraq, düşüncələrimizdə Qarabağda yaşayırdıq. İllərdir, Qarabağ yuxumuzdan belə çıxmırdı, bu günümüzə şükür. Prezidentimizə minnətdarıq, Allah şəhidlərimizə rəhmət eləsin. Prezidentimizə, qazilərimizə Allah cansağlığı versin, hər bir şəhidin valideynlərini, övladlarını öz evimizdə qonaq etmək istəyərik. Onların ataları, övladları bu torpaqlar uğrunda canlarından keçdilər. Yenidən doğma torpaqlarımıza qayıtmaq çox gözəl hissdir".



*Rasim Ələkbərov:* "Bu ayın 15-i Seyidbəyli kəndinə köçmüşük. Evlərin açarları təqdim olunub. Şükür bu günə, biz öz doğma torpaqlarımıza qayıtmışıq, 30 il həsrətində olduğumuz torpaqlarımıza qayıtdıq, sevincimizin həddi-hüdudu yoxdur. Allah cənab Prezidentimizi qorusun, Allah bütün şəhidlərimizə rəhmət eləsin, Şəhid analarının əllərindən öpür, atalarının qarşısında baş əyirik. Bizim üçün belə şərait yaradıldığına görə minnətdarıq".



*Zaur Rzayev* – Xocalı rayon Şuşakənd sakini: "33 ildən sonra Qarabağa qayıtmaq çox gözəl hissdir. Qaçqın, məcburi köçkün düşmüş qohum-qardaşlarımıza, hamısına elinə-obasına qayıtmağı Allah qismət eləsin. Cənab Prezidentin bura gəlməyindən xəbərim yox idi. Ancaq gəlişini eşidəndə sevinc hissi duydum. Bu hissi dilə gətirmək çətindir. Gəldi, ailəmizi ziyarət etdi. Xeyir-dua verdi, sağ olsun, əziyyət çəkdi. Minnətdarıq".

# Tanınmış türkiyəli tarixçi-alim, Türk Tarix Qurumunun fəxri üzvü, yazıçı İlber Ortaylı Naxçıvanda səfərdə olub



Tanınmış türkiyəli tarixçi-alim, Türk Tarix Qurumunun fəxri üzvü, yazıçı İlber Ortaylı Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı və dəvəti ilə 20-23 sentyabr tarixlərdə Naxçıvanda səfərdə olub. Tanınmış tarixçi və yazıçı İlber Ortaylı, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və ali təhsil ocağının rəhbər heyəti və Türk dünyasının böyük liderləri – Ümummilli Lider Heydər Əliyevin və böyük öndər Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan abidəsini ziyarət ediblər.



Səfər çərçivəsində məşhur elm xadimi İlber Ortaylının Naxçıvanın möcüzəli şəfa ocağı Duzdağ Müalicə Mərkəzi ilə tanışlığı təşkil olunub. Mərkəzdə gəzinti zamanı duz mədənlərində yaradılmış yeraltı müalicə mərkəzinin unikallığı, duz layları ilə örtülü divarları, şəraiti alimdə zəngin təəssürat yaradıb. Bununla yanaşı, naxçıvanlı sənətkarların qaya duzundan hazırladığı əl işləri onun diqqətini çəkib.

Naxçıvan şəhərindəki “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksində olan dəyərli elm xadimi sarayın orijinal memarlıq üslubunu heyranlıqla izləyib, Kəngərlilər tayfasına aid fotolarla yaxından tanış olub. Dəyərli elm xadimi Kəngərlilərin Naxçıvan tarixində tanınmış tayfa olduğunu vurğulayıb və tarixi fotolar arasında Fikrət bəy Kəngərlini tanıdığını bildirib.

Naxçıvan şəhərindəki tarixi abidələrlə yanaşı, Culfa rayonunda da qonaq olan professor İlber Ortaylı hürufilik təriqətinin əsasını qoymuş sufi alim, şair, filosof Fəzlullah Nəiminin Xanəgah kəndi yaxınlığında yerləşən orta əsrlər dövrünə aid türbəsini ziyarət edib. Həmçinin Əlincəqalanın şərq yamacında inşa edilən XV əsrə aid Əmirxan türbəsində olub. Daha sonra Ordubad rayonu ərazisində Zəngəzur dəhlizinə açılan qapı – Kotam kəndini gəzən professor ərazinin tarixən çox önəmli, xüsusi strateji məkan olduğunu bildirib.

Professor Ordubad şəhərinin qədim məhəllələrindən olan Sərşəhər meydanını gəzib, eyniadlı məscid, bulaq və həmin meydandakı tarixiliyi özündə ehtiva edən evlər və digər tikililərlə yaxından tanış olub. İlber Ortaylı Ordubadda olmağı çoxdan arzuladığını bildirib: “Bu gün qoca çinarın altında oturub, tarixi irsi özündə əks etdirən evlərin əhatəsində dayanmaq, təbii ki, insana nostalji hisslər bəxş edir. Burada olub, buranın adət-ənənələrini və memarlıq quruluşunu dərindən bilmək lazımdır” , – deyə bildirib. Eləcə də Sərşəhər meydanında olarkən professor şəhər sakinləri və oradakı qonaqlarla maraqlı söhbət edib, xatirə şəkilləri çəkdirib.

Türk dünyasının tanınmış tarixçisi, böyük elm xadimi İlber Ortaylının Naxçıvan səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Kembric Məktəbində kitab imza günü keçirilib. Görüşdə ali təhsil ocağının rəhbər heyəti, müəllim-tələbələri, şagirdlər və media nümayəndələri iştirak ediblər.




Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək tanınmış elm adamı İlber Ortaylının səfərinin ali təhsil ocağı üçün olduqca xüsusi önəm daşıdığını vurğulayıb. Bu görüşün tələbə və müəllimlərin intellektual dünyagörüşünü zənginləşdirməyə, gənclərin elmə, araşdırmaya və yaradıcı düşüncəyə marağının daha da artmasına səbəb olduğunu bildirib. Sonra universitetin əməkdaşları – fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev və tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev yazıçı İlber Ortaylının yaradıcılıq yolu və əsərləri haqqında danışıblar.



İlber Ortaylı çıxışında onun haqqında yüksək fikirdə olan tarixçi-alimlərə təşəkkür edərək Naxçıvan Dövlət Universiteti barədə xoş təəssüratlarını dilə gətirib. Naxçıvan Dövlət Universitetinin hər zaman hafizəsində örnək universitetlər sırasında qalacağını və burada yaradılan imkanlardan fərəhləndiyini bildirib.

Rektor Elbrus İsayev qonağa yağlı boya ilə çəkilmiş portretini hədiyyə edib. Kitab imza günü yazıçı İlber Ortaylının oxucuları ilə görüşərək kitablarını imzalamaqla başa çatıb.

Sentyabrın 22-də professor İlber Ortaylının yerli ictimaiyyətlə görüşü olub. Görüşdə dövlət və hökumət rəsmiləri, deputatlar, universitetin professor-müəllim heyəti, tələbələr, ictimaiyyət nümayəndələri və bir sıra tanınmış şəxslər iştirak ediblər.

Tədbir professor İlber Ortaylının həyat və fəaliyyətini əks etdirən videoçarxın nümayişi ilə başlanıb. Sonra Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayevin rəhbərliyində beş modul üzrə İlber Ortaylının çıxışları dinlənilib.











İlber Ortaylı ilk dəfədir, Naxçıvanda olduğunu və məmnunluq duyduğunu söyləyib, xüsusi diqqət üçün hər kəsə təşəkkürünü bildirib. Ortaylı proqram çərçivəsində “Azərbaycan və Naxçıvan tarixi”, “Tarix və müasirlik”, “Türk dünyası”, “Gənclik və zaman”, “Təhsil və elm” başlıqlı mövzularda zəngin biliklərini bölüşüb. Professor Azərbaycan dili, ədəbiyyatı, mədəniyyəti, tarixi haqqında çıxış edib. Tanınmış elm xadimi İlber Ortaylı bildirib ki, “Böyük öndər Heydər Əliyev necə gözəl ifadə edib. Bir millət, iki dövlətik”. Bu fikir sehrli bir düstur, tarixi ifadədir. Türkiyə və Azərbaycanı birləşdirən bir çox dəyərlər, mənəvi bağlar var. Bu iki dövlət ortaq mədəniyyət, din, dil, sənət biliklərinə sahib ölkələr olub, bir-birinə dostluq, qardaşlıq münasibətləri ilə bağlıdır. İlber Ortaylı Naxçıvanın tarixən önəmli region olduğunu, Osmanlı dövründə, XIII, XIV, XV əsrlərdə xüsusən diqqət mərkəzində olduğunu bildirib. Qeyd edib ki, “Bu gün də Türk dünyasına açılan qapı Naxçıvanda, Naxçıvan Dövlət Universitetində anadolulu gənclərin də təhsil aldığını, buradakı tələbələrlə gözəl ünsiyyət qurduğunu görmək məni xoşbəxt etdi”.



Görüş tarixə, elm, mədəniyyətə dair tədbir iştirakçılarının ünvanladığı suallarla davam edib. Sonda Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev görüşdən xatirə olaraq Naxçıvan şəhərində yerləşən böyük tarix və mədəniyyət yadigarı Möminə xatun türbəsinin yağlı boya ilə çəkilmiş rəsm əsərini hədiyyə edib.

Jurnalistlərə müsahibəsində tanınmış tarixçi İlber Ortaylı Naxçıvanı gəzmək üçün sevimli yer, iqlim olaraq bərəkətli torpaq adlandırıb: “İnşallah, gələcəkdə daha da çox inkişaf edəcək. Tarixi material baxımından çox zəngin bir şəhərdir. Kaş ki daha çox vaxtım olardı və Naxçıvandakı bütün tarixi arxiv materiallarını tədqiq edə bilərdim. Burada qədim Azərbaycan mədəniyyəti çox canlı şəkildə yaşamaqdadır. Naxçıvan xan sarayında da bunu görürük. Bütün qədim əsərlərdə bu var. Klassik mədəniyyət çox aydın şəkildə bilinir. Universitet davam edir, həyat davam edir. İnşallah, hər zaman belə olacaq. Yeni müqaviləyə görə, Naxçıvanın Azərbaycanla bağlantısı yaranacaq. Buna “Zəngəzur dəhlizi” adı verildi. Bu Naxçıvanın inkişafına çox təsir göstərəcək. İstiqbalı parlaq bir şəhərdir. Çox təmiz bir şəhərdir. Türk dünyasında Naxçıvan kimi baxımlı və təmiz şəhər tapmaq çox çətindir. Beləliklə, mədəni inkişaf qorunaraq saxlanılacaq, Azərbaycan ənənələri qədim zamanlarda olduğu kimi davam edəcək.

Qeyd edək ki, görüşün sonunda “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova Naxçıvanın gəzməli-görməli yerlərinin fotolarını özündə əks etdirən “Come to Nakhchivan” kitabını görkəmli tarixçiyə təqdim edib.

# Prokurorluq orqanları dövlətçilik maraqlarına, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir

***Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamı ilə oktyabr ayının 1-i "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd olunur.***



Azərbaycanda milli prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabr ayının 1-də qoyulmasına baxmayaraq, onun milli dövlətçilik maraqlarına, qanunun aliliyinə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən sivil, demokratik dövlət təsisatı kimi formalaşması və səmərəli fəaliyyəti üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan ədalətə, humanizmə söykənən məhkəmə-hüquq islahatları çərçivəsində mümkün olmuşdur.

Ulu Öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunaraq vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi mühüm prinsip kimi elan edilmişdir. Bu tədbirlərin tərkib hissəsi kimi Ümummilli Liderin rəhbərliyi ilə hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə zamanın tələbi ilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır. Əsas Qanunda ilk dəfə olaraq respublikamızın dövlət təsisatı sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi isə bu mühüm dövlət orqanının səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin və mənəvi keyfiyyətlərinin artırılmasından ibarət olmuşdur. Ulu Öndər, ilk növbədə, qeyd edirdi: ***"Hüquq-mühafizə orqanlarında sağlam mənəviyyat, sağlam mühit olmalıdır. İnsanlar, yəni bu orqanlarda işləyən vətəndaşlarımız anlamalıdırlar ki, onlara xüsusi etimad göstərilib, onlar xüsusi imtiyazlara, xüsusi səlahiyyətlərə malikdirlər, onlar Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi və inkişaf etməsində xüsusi rol oynamalıdırlar. Bunların hamısı da Azərbaycanda cinayətkarlıqla, cinayətkarlığın bütün formaları ilə mübarizəni gücləndirmək, qanunun aliliyini təmin etmək, hər bir məsələnin araşdırılmasında ədalət prinsipini ən yüksək tutmaq və beləliklə də, ölkəmizdə gedən demokratikləşmə prosesini inkişaf etdirmək üçündür".***

Ölkə Konstitusiyasının təməl prinsiplərini özündə əks etdirən və prokurorluğun qarşısında duran bu və digər məqsədlərin həyata keçirilməsində 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda Prokurorluğun fəaliyyət istiqamətləri belə müəyyən olunmuşdur: Prokurorluq qanunla nəzərdə tutulmuş hallarda və qaydada cinayət işi başlayır və ibtidai istintaq aparır, habelə korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik edir və qanunlara riayət edilməsini təmin edir, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir, məhkəmədə iddia qaldırır (ərizə verir), mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir, məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edir, dövlət ittihamını müdafiə edir, məhkəmə qərarlarından və səlahiyyətli orqanın (vəzifəli şəxsin) inzibati xəta haqqında iş üzrə qərarlarından və ya qərardadlarından protest verir, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir və məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak edir. Prokurorluğun üzərinə Azərbaycan Respublikasının Konstitusiyasında, "Prokurorluq haqqında" Qanunda və prosessual qanunvericilikdə nəzərdə tutulmamış vəzifələrin qoyulması yolverilməzdir.

Prokurorluq haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Prokurorluq haqqında", "Prokurorluqda qulluq keçmə haqqında" qanunlardan, digər qanunlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir. Qanunçuluq hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə, ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabe olması və siyasi bitərəflik isə prokurorluğun fəaliyyətinin əsas prinsipləridir.

***"Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutmuşdur və ölkəmizin müstəqilliyinə xidmət edir"***, – deyən Ulu Öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur.

1996-cı ildə Ümummilli Lider Heydər Əliyevin Sərəncamı Hüquqi islahatlar komissiyasının yaradılmasını, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində qanunun aliliyinin təmin olunmasını, beynəlxalq hüquq normalarının milli qanunvericilikdə nəzərə alınmasını və bu kimi digər əhəmiyyətli məsələləri nəzərdə tuturdu.

Məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun və digər qanunvericilik aktlarının qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ sənədlərin təsdiq edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə prosesi yeni mərhələyə qaldırılmışdır. Hüquq sisteminin inkişafında prokurorluğun rolunun gücləndirilməsi istiqamətində müntəzəm tədbirlər görülməklə 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Ulu Öndər Heydər Əliyevin prokurorluq işçilərinə ünvanlanmış dəyərli tövsiyələri və prokurorluq peşəsinə verdiyi qiymət hər bir əməkdaşın xalqına və dövlətinə sədaqət hissini gücləndirməklə böyük ruh yüksəkliyi yaratmışdır. Prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinə həsr olunmuş 28 noyabr 1998-ci il tarixli tədbirdə Ümummilli Lider dərinməzmunlu nitq söyləyərək prokurorluq işçilərinə dəyərli tövsiyələrini vermişdir. Ulu Öndərin prokurorluq peşəsi ilə bağlı dediyi: ***"Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız"*** sözləri prokurorluq işçilərində böyük ruh yüksəkliyi və iftixar hissi yaratmaqla yanaşı, onları öz fəaliyyətlərinə daha təkbkarlıqla və məsuliyyətlə yanaşmağa səfərbər etmişdir. Ümummilli Liderin bu sözləri prokurorluq işçilərinin gündəlik fəaliyyət şüarına çevrilmişdir.

Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin ***"Respublika prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir"*** sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsidir.

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə, hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar".*** Ölkə başçısının prokurorluq orqanları qarşısında müəyyən etdiyi, dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılması prosesi uğurla həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin: ***"Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq"*** sözlərinin əyani şəkildə reallaşması istiqamətində qısa zaman kəsiyində prokurorluqda müasir məzmunlu islahatlar aparılmış, səmərəliliyin və işin keyfiyyətinin artırılmasına yönəlmiş tədbirlər sistemli xarakter almaqla bu gün də ardıcıl şəkildə davam etməkdədir.

Prokurorluq orqanları dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının ən ümdə dəyər kimi qorunmasına xidmət edən, sıralarında öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirən, yüksək mənəvi, əxlaqi və peşə keyfiyyətlərinə malik olan, etik davranış qaydalarına riayət etməklə cəmiyyətin etimadını qazanmış dövlət qurumu kimi fəaliyyət göstərir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Son illər prokurorluqda sağlam iş mühitinin yaradılması üçün ciddi işlər görülmüş, dövlətçilik, qanunçuluq prinsipləri ön plana çəkilmiş, cəmiyyətimizdə prokurorluğa ictimai etimad artmış və onun nüfuzu yüksəlmişdir".***

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikası Prokurorluğunun Tədbirlər Planı" prokurorluq orqanlarının fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi sahəsində tədbirləri zəruri etmişdir.

Prokurorluq orqanlarının ölkənin hazırkı inkişaf səviyyəsinə uyğun olaraq qarşıda duran vəzifələrin icrasını təmin etmək məqsədilə fəaliyyətinin çağdaş dövrün ictimai münasibətlərinə uyğun təkmilləşdirilməsi məqsədinə xidmət edən Azərbaycan Respublikası Prokurorluğunun 2020-2023-cü illər ərzində Strateji İnkişaf Konsepsiyasında nəzərdə tutulmuş tədbirlərin əksəriyyətinin icra edilməsi hazırkı inkişaf mərhələsində aparılan islahatların effektivliyini və davamlılığını təmin edəcək yeni bir sənədin – Azərbaycan Respublikası Prokurorluğunun 2024-2026-cı illər üzrə Strateji İnkişaf Konsepsiyasının qəbul edilməsini şərtləndirmişdir.

Azərbaycan Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları da həmişə öz üzərində yüksək dövlət qayğısını hiss etmiş, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar respublikanın sosial-iqtisadi inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli, Sədərək, Babək rayon və Naxçıvan şəhər prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur Rayon Prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda struktur islahatlarının həyata keçirildiyi nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının strukturu Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturuna uyğunlaşdırılmışdır.

Yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşları 2025-ci ildə ölkəmizdə elan edilmiş "Konstitusiya və Suverenlik İli"ndə də qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışırlar.

107 yaşlı Azərbaycan Prokurorluğu Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin də dediyi kimi: ***"Azərbaycan Prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olacaq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir".***

**Faiq SƏFƏROV**
*Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, Baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi*

# Ordubadda tarixi binanın bərpasına start verildi



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində Ordubad şəhərində yerləşən “Ərbabın iş yeri” və ona bitişik tarixi binanın bərpa işlərinə başlanılıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə həyata keçirilən layihə üzrə hazırda ərazidə tikinti-bərpa işləri görülür.



## Tələbə olacağımı eşidəndə çox sevindim



Oxumağın, öyrənməyin yaşı yoxdur. Hansı yaşda olursan ol, oxumaq, öyrənmək insana zövq verir. İnsanın elmə, sənətə və bilik qazanmağa sevgisi varsa, o, istənilən yaşda arzularını gerçəkləşdirə bilər. Ordubad şəhər sakini, 78 yaşlı Hicrət Yusifova da bu fikirdədir. Beş övlad anası, 12 nəvə və 12 nəticə sahibi olan Hicrət nənə arzusunu həyata keçirərək tələbə adını qazanıb. O bu ildən Ordubad Peşə Liseyində xalçaçı ixtisası üzrə təhsil almağa başlayıb və ömrünün yeni səhifəsini böyük sevinc və qürur hissi ilə açıb.

Hicrət Yusifova ilə görüşüb sevincinə şərik olduq. O bizə ömrünün maraqlı səhifələrindən danışdı: “Mən 1946-cı ildə Ordubad şəhərində anadan olmuşam. 1953-cü ildə Məhəmməd Tağı Sidqi adına 1 nömrəli tam orta məktəbə getmişəm. 8-ci sinfi bitirdikdən sonra, 16 yaşımda ipək fabrikində işə başladım. Bir il sonra ailə həyatı qurdum. Sonradan gecə məktəbində oxuyaraq yoldaşımla birlikdə attestat aldıq. 25 il Ordubad ipək fabrikində çalışdım. Elə orada toxuculuq işləri ilə tanış oldum və xalçaçılığa marağım yarandı. Fasilələrdə parçalar toxuyur, öyrənirdim. Bu sənət bizə qədimdən miras qalmış ənənədir”.

Müsahimiz bildirir ki, Ordubadda xalçaçılıq kursunun açıldığını öyrənəndə dərhal müraciət edib: “Uşaqlıqdan xalça toxumağa marağım vardı. Atamın, anamın və nənəmin evində gözəl xalçalar vardı, onlara heyranlıqla baxardım. Düşünürdüm ki, yaşımın çoxluğuna görə məni peşə məktəbinə qəbul etməzlər, amma elə olmadı. İlk dəfə sinfə daxil olanda bir az həyəcanlandım, çünki qrup yoldaşlarım məndən xeyli gənc idi. Amma bu mənim üçün maraqlı bir təcrübə oldu”.

Bu qərarını bəziləri təəccüblə qarşılasa da, sosial şəbəkələrdə yazılan müsbət rəylər Hicrət nənəni daha da ruhlandırıb. O, gənclərə də müraciət edərək belə deyir: “Tövsiyəm odur ki, oxusunlar, öyrənsinlər. Xalçaçılıq çox gözəl sənətdir. İlk toxuyacağım xalçaya Ordubadın mənzərəli yerlərinin adını vermək istəyirəm ki, bu sənət daim yaşasın. Peyğəmbərimizin də dediyi kimi: “Beşikdən qəbr evinə qədər oxuyun”. Çünki öyrənmək üçün heç vaxt gec deyil”.

## Naxçıvanlı incəsənət adamları Qarabağda yeni kadr hazırlığındadır



Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin məzunları olan Novruzov Elvin (Kamança ixtisası), Novruzova Nuray (Qanun ixtisası), Babayev Fərid (Kamança ixtisası) cari tədris ilindən Qarabağ Universitetində müəllim kimi pedaqoji fəaliyyətə başlayıb.

Qeyd edək ki, həmin məktəbin 3 məzunu – İsmayılzadə Vüqar (Skripka ixtisası), Seyidova Aytən (Kamança ixtisası), Hacızadə Özgür (Tar ixtisası) hazırda Qarabağ Universitetinin İncəsənət fakültəsində təhsil alır.

## “SuVar” aksiyası növbəti dəfə keçirilib



Naxçıvan Muxtar Respublikasında yaşıllıqların qorunması, ətraf mühitin mühafizəsinə ictimai dəstəyin gücləndirilməsi, ekoloji məsuliyyət hissinin artırılması və iqlim dəyişikliklərinə qarşı maarifləndirmənin genişləndirilməsi məqsədilə təşkil olunan “SuVar” ekoloji aksiyası növbəti dəfə keçirilib. Bu dəfəki aksiya Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin həyatyanı sahəsində baş tutub.

Aksiya zamanı iştirakçılara sudan səmərəli istifadə, suya qənaət və yaşıllıqların qorunmasının vacibliyi barədə ətraflı məlumat verilib. Daha sonra ətraf ərazidəki ağaclar suvarılıb. Ağacların suvarılması işində məktəblilərlə yanaşı, təşkilatçı qurumların əməkdaşları da fəal iştirak ediblər.

Qeyd edək ki, bu ekoloji aksiya Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər və Təhsil nazirliklərinin, həmçinin Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə həyata keçirilib.

## “Şəhid övladlarına dəstək” tibbi müayinə aksiyası keçirilib



Naxçıvan Dövlət Universiteti və Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı, Ali Məclisin deputatı, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Stomatologiya kafedrasının müdiri, “İmplant-Dent-Naxçıvan” stomatoloji klinikasının baş həkimi Rauf Cəfərovun rəhbərliyi ilə “Şəhid övladlarına dəstək” tibbi müayinə aksiyası keçirilib.

Naxçıvan Dövlət Universitetində aksiyanın açılışı olub. Universitetin prorektoru Nicat Yaqubov və layihənin rəhbəri Rauf Cəfərov aksiyanın şəhid ailələrinin sağlamlığına, rezident və tələbələrə təcrübə qazanmasına dəstək baxımından əhəmiyyətli olduğunu vurğulayıblar.

“Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsində şəhid ailələri ilə müəllim, rezident və tələbələrin görüşü keçirilib. Tədbirdə əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. “Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsinin direktoru İlham İsmayılov, Ali Məclisin deputatı, Naxçıvan Dövlət Universitetinin kafedra



müdiri, “İmplant-Dent-Naxçıvan” stomatoloji klinikasının baş həkimi Rauf Cəfərov və universitetin Tibb fakültəsinin müəllimləri çıxış ediblər.

Şəhid ailələri adından şəhid Zülal Mədətlinin atası Rəhim Mədətli, şəhid Seymur Cabbarovun atası İlham Cabbarov və şəhid Ənvər Əliyevin atası Nizami Əliyev layihəyə görə minnətdarlıq ediblər.

“Şərur Regional Tibb Mərkəzi” publik hüquqi şəxsində şəhidlərimizin xatirəsinə yaradılan “Vətən sizə minnətdardır” guşəsi ilə tanışlıqdan sonra aksiya başlayıb. Aksiya çərçivəsində Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Stomatologiya kafedrasının müəllim, rezident və tələbələri şəhid ailə üzvləri və övladlarını ümumi həkim müayinəsi, stomatoloji müayinə və profilaktikadan keçirib, sağlamlıq haqqında ilkin məsləhətlər veriblər. Həmçinin sağlam həyat tərzi ilə bağlı maarifləndirici söhbətlər aparılıb, aksiyada iştirak edən şəhid övladlarına hədiyyələr təqdim olunub.

Qeyd edək ki, “Sağlam həyat, sağlam gənclik” şüarı ilə keçirilən aksiya 27 sentyabr – Anım Gününə həsr olunub və 8 Noyabr – Zəfər Günündək davam edəcək. Layihənin məqsədi şəhidlərimizin əziz xatirəsini yad etmək, şəhid övladlarına mənəvi dəstək olmaq, onların tibbi baxışını aparmaq və pulsuz stomatoloji xidmət göstərmək, tələbələrin həm peşəkar, həm də mənəvi baxımdan inkişafına töhfə verməkdir. Aksiya çərçivəsində muxtar respublika üzrə, ümumilikdə, 100-dən artıq şəhid övladına stomatoloji xidmət göstərilməsi nəzərdə tutulub.

## İdmançımız ölkə birinciliyinin qalibidir




Abşeron Olimpiya İdman Kompleksində Strongman üzrə keçirilən Azərbaycan çempionatında Naxçıvanı təmsil edən 110 kiloqram çəki dərəcəsində dünya çempionu Turqay Qəribli ölkə birinciliyində də böyük əzmkarlıq göstərərək qızıl medala layiq görülüb. Bununla o, 2025-ci ilin dekabr ayında Dubayda keçiriləcək dünya çempionatına vəsiqə qazanıb.

## Naxçıvandan 4 karateçi beynəlxalq turnirin mükafatçısı olub

19-21 sentyabr tarixlərdə Mingəçevir “Kür” Olimpiya Tədris-İdman Mərkəzində karate idman növü üzrə uşaqlar, yeniyetmələr, gənclər və U21 yaş kateqoriyalarını əhatə edən “Olimpiya ümidləri” beynəlxalq turniri keçirilib. Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və Azərbaycan Karate Federasiyasının birgə təşkilatçılığı ilə reallaşan yarış III MDB Oyunlarına hazırlıq xarakteri daşıyır.

Turnirə “Naxçıvan” Karate Klubunun 5 idmançısı qatılıb. Təmsilçilərimiz 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanıblar.

8-9 yaşlı qızlar arasında -30 kq çəki dərəcəsi üzrə çıxış edən Sona Nəcəfbəyli qızıl medala sahib çıxıb. Fatimə Bağırzadə (10-11 yaş, -40 kq) ikinci, Elgün Zeynalov (16-17 yaş, -68 kq) və Güllər Hüseynova (14-15 yaş, +61 kq ) isə üçüncü olublar.



### İtmişdir

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi, bina 5 (A blok) Salmanov Vüsal Səxavət oğlunun adına olan 15121 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Vərməziyar kənd sakini Əsgərova Rəmziyə Musa qızının adına olan JN-223 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nəzərabad kənd sakini Bədəlova Sonya Alməmməd qızının adına olan JN-37A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Həzi Aslanov küçəsi, döngə 4, ev 13A ünvanında yerləşən Baxşəliyeva Əsmər Fərman qızına məxsus olan fərdi yaşayış evinin 9736 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ərəbyengicə kəndində yaşamış Qoçəliyeva Səkinə Novruz qızının adına olan JN-0066 nömrəli, 10208038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Qarabağlar kənd sakini Nabatov Elbəyi Qalaş oğlunun adına verilmiş JN-1372A nömrəli, 10209018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kəndində yaşamış Cəfərova Tamam Qafar qızının adına olan JN-381A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Ələkli kənd sakini Qurbanov Ramil Kamil oğluna məxsus JN-117A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” və JN-34 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Maxta kəndində yaşamış Seyidov Lətif Mirhəbib oğlunun adına olan JN-339 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 242

Nömrəyə məsul: Ceyhun Məmmədov, Turan Məmmədli, Elnurə Cəfərova
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.